16 aprel 2021-ci il
№14 (8922)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı






**İlham ƏLİYEV, Müzəffər Ali Baş Komandan**

# İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir

Dekabrın 10-da keçirilmiş hərbi paradda bu lövhə nümayiş etdirildi. Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülüb. Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!

Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq.

İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir.

Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün türk dünyası bizim qələbəmizlə fəxr edir. Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır.

Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ən vacib məsələlərdən biridir. İkinci Qarabağ müharibəsi göstərdi ki, bu sahədə də böyük uğurlar əldə edilib.

## Bakıda Hərbi Qənimətlər Parkı açıldı

# Azərbaycan Tibb Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Tibb Universitetinin 90 illiyi münasibətilə Azərbaycanda tibb elminin və təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Tibb Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar elm xadimi"**

Allahverdiyeva Lalə İsmayıl qızı
Bağırova Hicran Firudin qızı
Məmmədov Arif Məmməd oğlu

**"Əməkdar müəllim"**

Həsənov Faiq Paşa oğlu
Məmmədov Fəxrəddin Nərman oğlu
Məmmədova Zemfira Şahnəzər qızı
Ocaqverdi Zadə Elmira Əli qızı

**"Əməkdar həkim"**

Bəylərov Rauf Oruc oğlu
Pənahov Nazim Adil oğlu
Poluxov Ramiz Şamil oğlu
Şükürov Malik Əvəz oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

# Azərbaycan Tibb Universiteti əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Tibb Universitetinin 90 illiyi münasibətilə Azərbaycanda tibb təhsilinin inkişafında xidmətlərinə görə Azərbaycan Tibb Universitetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Elçin Kamil oğlu
Axundov Ramiz Atalla oğlu
Camalov Fariz Hidayət oğlu
Cavadov Samir Sabir oğlu
Cəfərov Ələmdar Mədət oğlu
Əhmədov İlham Əvəzağa oğlu
Əliyeva Zemfira Abdul Həmid qızı
İsmayılov Qurban Meyfalı oğlu
Nəsirli Cəfər Əliabbas oğlu
Səlimov Rövşən İmran oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 aprel 2021-ci il*

# Cəmşid Naxçıvanski adına hərbi liseyin 50 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2021-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyin fəaliyyətə başlamasının 50 illiyi tamam olur.

Cəmşid Naxçıvanski adına hərbi lisey Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yaradılmışdır. Ulu öndərin daim qayğı ilə yanaşdığı və xüsusi diqqət yetirdiyi bu tədris ocağı ötən müddət ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərmiş, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynamışdır. Liseyin yetirmələri müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin formalaşdırılması və möhkəmləndirilməsi işinə dəyərli töhfələr vermiş, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə həmişə ön cəbhədə yer almışlar. Onlar böyük rəşadət nümayiş etdirərək "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" adlarına layiq görülmüş, orden və medallarla təltif olunmuşlar. Hərbi liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Hazırda Silahlı Qüvvələrimizdəki zabitlərin əksəriyyəti məhz Cəmşid Naxçıvanski adına hərbi liseyin məzunlarıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Cəmşid Naxçıvanski adına hərbi liseyin ölkədə ordu quruculuğu işində təqdirəlayiq fəaliyyətini nəzərə alaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Cəmşid Naxçıvanski adına hərbi liseyin 50 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 14 aprel 2021-ci il*

# Dərslik layihələrinə dair ictimai rəy öyrənilir

2021-2022-ci tədris ilinə ölkənin dövlət ümumi təhsil müəssisələrinin II və VI sinifləri üçün yeni hazırlanmış və ya təkmilləşdirilmiş dərslik və dərsliklərin metodik vəsaitlərinə dair ictimai rəyin öyrənilməsi prosesi davam edir.

Bu məqsədlə dərslik və dərsliklərin metodik vəsaitlərinin layihələri *www.trims.edu.az* saytının "İctimai müzakirədə olanlar" bölməsində yerləşdirilib.

Sayta daxil olaraq qeyd edilən bölmədə yerləşdirilmiş dərslik komplektlərinin məzmunu ilə tanış olmaq, eyni zamanda xüsusi ayrılmış sahədə irad və təklifləri yazmaq mümkündür. İrad və təkliflər *derslik@edu.gov.az* elektron ünvanına da göndərilə bilər.

Təhsil Nazirliyi elm adamlarını, təhsil işçilərini, valideynləri, aidiyyəti dövlət qurumlarını, müxtəlif ictimai birlikləri və bütün maraqlı tərəfləri müzakirəyə çıxarılmış dərslik layihələrinə dair rəy, irad və təkliflərini bildirməyə dəvət edir.

# Məktəblərimiz "Microsoft" şirkətinin "Nümunəvi məktəblər" proqramında




**Azərbaycan məktəbləri "Microsoft" şirkətinin "Nümunəvi məktəblər" (Microsoft Showcase School) proqramında nominant seçiliblər. Proqram dünya üzrə təhsilin idarəolunması və tədris prosesinin təşkilində "Microsoft" texnologiyalarından innovativ formada istifadə edən və öz təcrübələrini beynəlxalq təhsil ictimaiyyəti ilə bölüşməyə hazır olan məktəblər üçün nəzərdə tutulub.**

## Ölkəmizin 5 təhsil müəssisəsinin nominantlığı proqramda qəbul olunub

Təhsilin rəqəmsal transformasiyası üzrə qabaqcıl məktəbləri bir araya gətirən bu proqramda ölkəmiz üzrə Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Sumqayıt Təfəkkür liseyi, Bakı şəhəri 238 nömrəli, 36 nömrəli və 220 nömrəli tam orta məktəblərin nominantlığı qəbul olunub. Məktəblər təhsildə rəqəmsal liderlik və siyasət, data əsaslı təhsil, gələcək bacarıqların formalaşdırılması, fərdi ehtiyacları dəstəkləyən inklüziv öyrənmə mühitinin olması kimi meyarlara əsasən qiymətləndirilib.

Proqram çərçivəsində iştirakçı seçiləcək məktəblərə "Microsoft" şirkəti tərəfindən metodiki və təşkilati dəstək göstəriləcək, məktəblər geniş tədris resurslarına və elmi tədqiqatlara çıxış imkanı əldə edəcək, davamlı olaraq keçirilən beynəlxalq tədbirlərdə iştirak edə, digər məktəblərlə ortaq layihələr həyata keçirdə və öz təcrübələrini paylaşa biləcəklər.

Qeyd edək ki, proqramda iştirak Təhsil Nazirliyi və "Microsoft" korporasiyası arasında imzalanmış "Təhsilin rəqəmsal transformasiyası üzrə niyyət sənədi" çərçivəsində həyata keçirilir. Niyyət sənədinə əsasən, tərəflər arasında ümumtəhsil sahəsində strateji əməkdaşlığın qurulması, həmçinin, Azərbaycanda "Microsoft" təhsil proqramlarının tətbiq olunduğu nümunəvi məktəblərin yaradılması nəzərdə tutulur.

# Distant təhsilə pandemiyanın törəməsi kimi baxmalıyıq






**Aprelin 7-də Təhsil naziri Emin Əmrullayev AzTV-nin "Hədəf" proqramının qonağı olub. Verilişdə pandemiya dövründə tədrisin təşkili, təhsil işçilərinin vaksinasiyası, direktorların işə qəbulu, peşə təhsili, SABAH magistraturası və digər məsələlər ətrafında danışılıb.**

## *Emin Əmrullayev:* "Təhsil Nazirliyi qurum olaraq əyani təhsilə qayıtmaq istəyən ən maraqlı tərəflərdən biridir"

**(Əvvəli qəzetimizin ötən sayında)**

### XXI əsrin və əmək bazarının tələblərinə uyğun kadr potensialının hazırlanması

*- Pandemiyanın yaratdığı çətinliklərə rəğmən müəyyən yeniliklər də həyata keçirilir. Mən istərdim ki, xüsusilə tələbələri maraqlandıran bir məqam - SABAH magistraturası barəsində də danışaq. Bu yenilik nə verəcək? Tələbələr üçün onun əsas mahiyyəti nədən ibarətdir?*

- Siz bilirsiniz ki, 5 ildən artıqdır ki, SABAH bakalavr səviyyəsində tətbiq olunur. Savadlı, bacarıqlı və hazırlıqlı tələbələr üçün fərqli mühit yaratmaq məqsədi daşıyır. SABAH magistraturasının bir neçə məqsədi var. Birincisi, XXI əsrin və əmək bazarının tələblərinə uyğun kadr potensialının hazırlanmasıdır. Ona görə builki SABAH magistratura proqramları başladıqda biz məhz elektron kommersiya, süni intellekt, daha çox İT ixtisasları üzərində olan ixtisaslara fokus oluruq. İkinci məsələ, məzmun məsələsidir, yəni, ixtisasla yanaşı ona uyğun zəruri məzmunu düzgün çatdırmaq. Çalışdığımız daha praktikyönlü magistr proqramlarını hazırlamaqdır ki, tələbələr öz vaxtlarını auditoriyada keçirməklə yanaşı, həm də praktik həyatda öz ixtisaslarının nədən ibarət olduğunu başa düşsünlər. Üçüncü məsələ isə SABAH magistraturasında xarici ölkələrin daha çox müsbət təcrübəsi olan ali təhsil müəssisələri ilə yerli ali təhsil ocaqlarının əməkdaşlığını təmin etməklə tələbələri, belə deyək, gələcək əmək bazarına hazırlamaqdır.

### Peşə təhsilinə maraq artır

*- Son illər peşə təhsilinə kifayət qədər maraq artıb. Bunun əsas səbəbi nə ilə izah edilə bilər? Hansı yeniliklər, belə deyək də, peşə təhsilinə marağı artıran əsas səbəblər hesab olunur?*

- Yəni, biz birinci başa düşməliyik ki, peşə təhsili ilə bağlı hansı problemlərimiz var. 30 illik işğal dövründə öz torpaqlarından didərgin düşən məcburi köçkünlər bir çox peşə təhsil müəssisələrimizdə müvəqqəti məskunlaşıblar. Vaxtilə işğalda olan torpaqlarımızda mövcud olan peşə təhsili infrastrukturu demək olar ki, dağıdılmışdır. Artıq qazandığımız zəfər həmin bölgələrdəki peşə təhsili müəssisələrinin də inkişaf edəcəyinə əminlik yaradır. Ölkə rəhbərinin müvafiq sərəncamları ilə ən müasir standartlara cavab verən bir neçə peşə təhsili müəssisələri artıq istifadəyə verilib. Bu peşə təhsili müəssisələri özünün, belə deyək, infrastrukturuna görə hətta bəzi ali təhsil müəssisələrini də qabaqlayır.

**Builki SABAH magistratura proqramları başladıqda biz məhz elektron kommersiya, süni intellekt, daha çox İT ixtisasları üzərində olan ixtisaslara fokus oluruq.**

**Peşə təhsilindən sonra ona müvafiq olaraq ali təhsil almaq imkanının yaradılması da düşünürəm ki, bu sahəyə marağı artırır.**

Peşə təhsili ilə bağlı ikinci problem onun davam formasında, yəni, hər hansı bir şəxsin peşə təhsili alandan sonra öz təhsilini necə davam etdirilməsi idi. Bu problemin həlli üçün biz yüksək peşə ixtisas təhsili və yaxud səviyyəsini tətbiq etməyə başlamışıq. Bu il 1000-ə yaxın tələbənin həmin peşə ixtisaslarına qəbulunu planlaşdırırıq. Yüksək peşə ixtisas təhsili nədir? Yüksək peşə ixtisas təhsili subbakalavr, yəni, kollec və ya keçmiş texnikum səviyyəsinə qəbul deməkdir. Artıq subbakalavrdan sonra tələbələr təhsillərini ali məktəblərdə davam etdirmək imkanı da qazanır. Yəni, prinsipcə yiyələndiyi peşə təhsilindən sonra ona müvafiq olaraq ali təhsil almaq imkanının yaradılması da düşünürəm ki, bu sahəyə marağı artırır. Üçüncü məsələ, əmək bazarının tələbidir. Əmək bazarında boş iş yerləri heç də həmişə ali təhsil tələb edən ixtisaslarla bağlı deyil. Bir çox hallarda məhz peşə təhsilini bitirmiş insanlara böyük tələbat var. Bu da mənə elə gəlir ki, olduqca vacib tendensiyadır və insanlar bunu başa düşdükcə həmin sahəyə maraq düşünürəm ki, getdikcə daha da artacaqdır.

Məzun olduqdan sonra iş tapmaq və əməkhaqqı almaq ən vacib amildir. Biz də bunu öz işimizin əsas indikatoru kimi hesab edirik. Bu ildən başlayaraq həm qısamüddətli kursları, həm də dediyim yüksək peşə ixtisasları üzrə qəbulu Bakıda, eləcə də bölgələrimizdə qeyd etdiyim kimi yeni yaradılmış hər cür infrastrukturu, müasir tələblərə cavab verən həmin məktəblərdə təşkil etməyi planlaşdırırıq.

### Pandemiya həm də imkanlar yaradır

*- Pandemiya bu sahədə hər hansı bir çətinliklər yaradırmı və yaxud da əvvəlcədən nəzərdə tutduğunuz planlarınızın dəyişməsinə səbəb olubmu?*

- Təbii ki, kifayət qədər ciddi problemlər yaradır. Məsələn, peşə təhsili insanların bir yerdə və ya üzbəüz olub hansısa bir formada ustalıq öyrənməyi tələb edir. Bildiyiniz kimi son ildə pandemiya səbəbindən biz bir neçə dəfə ciddi, belə deyək, məhdudiyyətlər yaşadıq. Bunun təsirləri var və düşünürəm ki, pandemiyanın təsirləri qısamüddətli deyil. Yəni, bunu da başa düşməliyik ki, bizim kifayət qədər uzunmüddətdə təhsilə olan nəticələri aradan qaldırmaq üçün vaxt və resurslara ehtiyacımız olacaq. Yəni, burada hansısa 1 və ya 2 ildən danışmırıq. Artıq dünyada bununla bağlı müəyyən ilkin tədqiqatlar var və kifayət qədər uzunmüddətli zaman, müddətlər səsləndirilir. Amma eyni zamanda da başa düşməliyik ki, pandemiya yalnız problem deyil, həm də imkanlar yaradır. Xüsusilə biz yeni ixtisaslar, o cümlədən texnologiyanın nə qədər tez bir zamanda inkişafı, ondan səmərəli istifadə və zəruriyyətdən irəli gələrək öyrənməni müşahidə edirik. Ona görə bəzi hallarda, yəni, yaranmış situasiyanın ağırlığı ilə yanaşı, bu imkanlara da baxmağı tələb edir.

Məncə, bunları birinci görən, onlardan düzgün faydalanan şəxslər, uzunmüddətli vədədə həmin o pandemiyadan müsbət formada ayrılan ölkələr və yaxud sistemlər olacaq. Sadəcə olaraq o şikayət edən və giley-güzarla məşğul olan insanlar üçün vəziyyətin daha yaxşı olmayacağını səmimi olaraq düşünürəm. Çünki burada verilmiş çətinliklərə və çağırışlara doğru biz nə edirik sualı olduqca vacibdir, nəinki yalnız problemlər haqqında danışmağımız. Problemlərlə yanaşı, onların həlli haqqında danışmaq da olduqca zəruridir.

**⇨Ardı səh.4**

# Distant təhsilə pandemiyanın töräməsi kimi baxmalıyıq

## Emin Əmrullayev: “Təhsil Nazirliyi qurum olaraq əyani təhsilə qayıtmaq istəyən ən maraqlı tərəflərdən biridir”








⇦ Əvvəli səh.3

### “Dərs vaxtı” proqramının 8000-ci buraxılışı

*- Əslində əvvəldə vurğuladıq ki, pandemiya təhsil sahəsində həm də bizə bir distant təhsil təcrübəsi qazandırdı. Həmin sahədə öz peşəkarlığımızı necə daha da inkişaf etdirə bilərik kimi bir məsələ də ortaya çıxır. Bu müddət ərzində Azərbaycan Dövlət Televiziyası ilə Təhsil Nazirliyinin uğurlu əməkdaşlığı yaranıb. Sizi, eləcə də, bizi təbrik etmək olar ki, artıq “Dərs vaxtı” proqramının 8000-ci buraxılışı efirdə yayımlanıb. Ümumiyyətlə, telədərslərin keyfiyyəti necədir? Və belə deyək ki, şagirdlərin bundan səmərəli istifadəsi ilə bağlı müşahidələr, monitorinqlər aparırsınızmı?*

- Mən ilk növbədə Azərbaycan Dövlət Televiziyasına həm təşəkkürümü bildirmək, həm də təbrik etmək istəyirəm. Həqiqətən də artıq 8000-ci dərsin çəkilməsi Azəbaycan təhsili üçün birmənalı olaraq müsbət bir haldır. Çünki mən inanıram ki, post-pandemiya dövründə də həmin dərslərin şagirdlər üçün əlçatan olması istənilən halda yaxşı xəbərdir. Yəni, telədərslərin olması olmamasından daha yaxşıdır. Nəzərə alsaq ki, 8000-ci telədərsin çəkilməsi bizim həm televiziya, həm müəllim həmkarlarımızın böyük zəhməti və səyi nəticəsində mümkün olmuşdur. Mən elə buna görə də əməyi olan hər bir kəsə minnətdarlıq etməklə bərabər, bunun həm də nə qədər ağır bir iş olduğunu vurğulamaq istərdim. Xüsusilə pandemiyanın ilk dövrlərində bütün məhdudiyyətlərə, risklərə baxmayaraq həm müəllimlərimizin, eyni zamanda televiziya işçilərimizin burada çox vacib bir əməkdaşlığı quruldu və nəticə də oldu.Telədərslər nə qədər faydalıdır sualına cavab olaraq bildirmək istəyirəm ki, təbii ki, telədərslər bütün problemləri həll etmir. Bilirik ki, 99 faizdən yuxarı hər bir kəsin evində televizor var və Azərbaycan Dövlət Televiziyasından bu dərsləri hamı izləyir. Bu baxımdan dərslik və telədərs minimal olaraq hər bir şagirdin öyrənməsi üçün əlində olan imkandır.Təbii ki, minimal və arzu edilən arasında müxtəlif məsafələr var.Bu istər ailələrdən, bölgələrdən asılı olaraq dəyişir və Təhsil Nazirliyi üçün ən böyük problemlərdən biridir. Çünki biz hər bir şagirdin davamlı və eyni zamanda keyfiyyətli təhsil almağını istəyirik. Amma nə bizdə, nə də başqa ölkələrdə bu həmişə mümkün olmur. Amma biz bu ideyaya doğru addımlamalıyıq. Məncə, ona görə telədərslərin minimal müsbət təsir, həmçinin uzunmüddətlilik baxımından da rolu əvəzsizdir. Düşünürəm ki, telədərslərin keyfiyyəti getdikcə yüksəlməkdədir.

### Ən önəmli məsələ məzmunla, dəyərlərlə, davranışla bağlıdır

*- Emin müəllim, proqramımızın əvvəlində vurğuladınız ki, qeyri-müəyyən bir vəziyyət yaranıbdır. Biz pandemiyanın, belə deyək ki, yer kürəsindən nə vaxt itəcəyini hələ ki, proqnozlaşdıra bilmirik. Bununla bağlı hətta ən peşəkar tibb mütəxəssisləri belə proqnoz verməkdə çətinlik çəkirlər. Ona görə post-pandemiya dövründən bizim danışmağımız bəlkə də hələ tezdir. Amma bununla belə Təhsil Nazirliyi olaraq siz post-pandemiya dövründə təhsil sahəsində yaranmış boşluqları, ümumiyyətlə, pandemiyanın vurduğu zərərləri kompensasiya etmək üçün hansı addımları atmağı planlaşdırırsınız?*

- Çox vacib sualdır. Çünki, məncə ən vacib məqsəd itirilmiş bir öyrənmə, bir bilik, bacarıqlar var. Amma öyrənmək imkanı var. Və bu, dediyim kimi milyondan artıq insanı əhatə edir. Həmin itirilmiş öyrənməni bərpa etmək elə də asan məsələ deyil. Zaman və resurs tələb edir. Eyni zamanda biz yeni reallıqları başa düşürük. Və yeni reallıqlara adaptasiya olmaq çox vacib məsələdir. Yenə də deyirəm, burada biz müqavimət göstərə və ya adaptasiya ola bilərik. Düşünürəm ki, adaptasiya olmaq müqavimətdən daha yaxşı strategiyadır.

Digər bir məsələ, biz başa düşdük ki, öyrənməyə informasiya-kommunikasiya texnologiyaları nə qədər təsir edir və bizim Təhsil Nazirliyi olaraq məktəblərdə həm müəllimlərimizin İKT-dən istifadə bacarığı, həm təhsil müəssisələrimizin İKT infrastrukturu, həmçinin onların internet bağlantısının daha da yaxşılaşdırılması vacibdir. Amma bunlar hamısı alətdir. Ən önəmli məsələ yenə də məzmunla, dəyərlərlə, davranışlarla bağlıdır. Və xüsusi qeyd etmək istəyirəm ki, pandemiyanın ən çətin olan hissələrindən biri müəllim və şagirdlər üçün sosial-emosional tərəfləridir. Dərhal sonra düşünürəm ki, biz məhz bu psixoloji dəstəklə bağlı və xüsusilə ibtidai sinif şagirdlərimiz üçün situasiyadan asılı olaraq çox işlər görə bilərik. Əlavə dərslər, dəstək tədbirləri, məktəbdə müəllimlərin və müxtəlif qeyri-hökumət təşkilatlarının, ictimai birliklərin və yaxud özəl sektorun, o cümlədən ailələrin, valideynlərin yaxından iştirakını gözləyirik. Çünki bu, tək Təhsil Nazirliyinin görə biləcəyi bir proses deyil. Biz daha çox təhsili tənzimləyən qurumuq. Və ona görə alətlərimizdən optimal istifadə etməyi düşünürük. Ancaq eyni zamanda ailələr də, belə deyək, ümumi cəmiyyətimiz də bu situasiyanı başa düşüb bacardıqca bayaq dediyimiz kimi problemlərə fokus olub, amma imkanları görüb həll yollarını da ən qısa zamanda tətbiq etməyə çalışmalıdır.

### Pandemiyadan çıxmağın ən qısa yolu vaksinasiyadır

*- Biz arzulayırıq ki, növbəti dəfə “Hədəf” proqramında verəcəyimiz suallar post-pandemiya dövründə Təhsil Nazirliyinin təhsil sahəsində pandemiyanın vurduğu zərərlərin bərpa prosesi barədə olsun.*

*Emin müəllim suallarımızı ətraflı cavablandırdığınız üçün təşəkkür edirik.*

- Çox sağ olun. Mən də düşünürəm ki, ən vacib məsələ nikbin olmaqdır. Bu günləri pandemiyadan çıxmağın ən qısa yolu vaksinasiyadır. Mən bu sözü bilə-bilə dəfələrlə təkrar edirəm. Çünki bizim vətəndaşlarımız nə qədər tez vaksinasiya olunarsa, bir o qədər həm təhsilimiz normala, ənənəviyə qayıda bilər, həm də ümumi həyatımız.

*- Mən də sizə təşəkkürümü bildirirəm.*

**Həqiqətən də artıq 8000-ci dərsin çəkilməsi Azəbaycan təhsili üçün birmənalı olaraq müsbət bir haldır. Çünki mən inanıram ki, post-pandemiya dövründə də həmin dərslərin şagirdlər üçün əlçatan olması istənilən halda yaxşı xəbərdir.**

**Bu günləri pandemiyadan çıxmağın ən qısa yolu vaksinasiyadır. Mən bu sözü bilə-bilə dəfələrlə təkrar edirəm. Çünki bizim vətəndaşlarımız nə qədər tez vaksinasiya olunarsa, bir o qədər həm təhsilimiz normala, ənənəviyə qayıda bilər, həm də ümumi həyatımız.**

# "Su ehtiyatlarından səmərəli və qənaətli istifadə" mövzusunda vebinar

Aprelin 15-də "Su ehtiyatlarından səmərəli və qənaətli istifadə" mövzusunda vebinar keçirilib. Ekoloji Biliklər Gününə həsr olunan vebinar Təhsil və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin təşkilatçılığı, IDEA İctimai Birliyinin dəstəyi ilə baş tutub.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov dünyada su probleminin ciddi hal aldığını diqqətə çatdırıb. Nazir müavini bildirib ki, qlobalaşmanın nəticəsi olaraq iqlim dəyişiklikləri su ehtiyatlarına çox ciddi təsir göstərir. Azərbaycanda su ehtiyatları ilə bağlı problemlərin həlli istiqamətində ölkə rəhbərliyi tərəfindən mühüm tədbirlər görüldüyünü vurğulayan Firudin Qurbanov davamlı sosial-iqtisadi inkişafda su ehtiyatlarının istifadə və mühafizəsi məsələsinin əsas rol oynadığını da əlavə edib.

Ekoloji təhsilin əhəmiyyətindən danışan nazir müavini bildirib ki, bu, müasir qlobal kontekstdə ətraf mühitin mühafizəsi, yer kürəsinin davamlı inkişafına nail olmaq üçün ən vacib məqamlardan biri kimi qəbul olunur. Firudin Qurbanov su ehtiyatlarından səmərəli istifadə məqsədilə məktəblilər və müəllimlər üçün təşkil edilən maarifləndirici tədbirlər barədə də iştirakçılara məlumat verib.

Nazir müavini çıxışının sonunda vebinarın uşaq və gənclərin ekoloji tərbiyəsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev su ehtiyatlarının səmərəli istifadə və mühafizəsindən danışıb. Bütün dünyada olduğu kimi ölkəmizdə də su probleminin aktual olduğunu deyən nazir müavini su ehtiyatlarından səmərəli istifadəyə dair Tədbirlər Planından söz açıb. Firdovsi Əliyev Təhsil Nazirliyi ilə birgə sudan qənaətli və səmərəli istifadəyə dair həyata keçirilən tədbirlər çərçivəsində maarifləndirici materiallar hazırlandığını, təlimlər keçirildiyini qeyd edib. Nazir müavini bildirib ki, bu təlimlərin əsas məqsədi su probleminə diqqəti çəkmək, su itkilərinin qarşısının alınmasında ictimaiyyətin, uşaqların məlumatlandırılması olub. Firdovsi Əliyev bu cür tədbirlərin ardıcıl davam etdirildiyini vurğulayaraq hazırda işğaldan azad olunmuş ərazilərdə başladılan "Yaşıl marafon" tədbirindən də söz açıb.

Tədbirdə iştirak edən IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov 15 aprel - Ekoloji Biliklər Gününün tarixindən danışıb. Surxay Şükürov bildirib ki, ekoloji fəallılıq tək bir aksiya ilə bitməli deyil, dayanıqlı və məsuliyyətli bir akta çevrilməlidir. Surxay Şükürov deyib ki, ətraf mühitə qayğı ilə yanaşmalı, israfçılığa yol verməməliyik, eyni zamanda ekoloji problemlərin həlli üçün qüvvələr birləşdirilməli, məqsəd bir olmalıdır. Surxay Şükürov birlik tərəfindən su resurslarının qorunması istiqamətində görülən ictimai maarifləndirmə tədbirlərindən də söz açıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su ehtiyatlarının idarə edilməsi şöbəsinin sektor müdiri Fəridə Ələkbərova "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi sahəsində görülən işlər və maarifləndirmə tədbirləri" mövzusunda təqdimatla çıxış edib.

Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin direktoru Firuzə Sultan-zadə "Azərbaycanda su problemləri və səmərəli istifadəsi istiqamətində məktəblilərin ekoloji biliklərinin artırılması, uşaq və gənclər arasında maarifləndirmə proqramlarının təşkili" mövzusunda təqdimatla çıxış edərək keçirilən maarifləndirici tədbirlər barədə məlumat verib.

Sonda vebinarda iştirak edən şagirdlərin çıxışları dinlənilib, sualları cavablandırılıb.

# BDU ilə Cənubi Bohemia Universiteti əməkdaşlığa başlayır

Bakı Dövlət Universiteti (BDU) və Çexiyanın Cənubi Bohemia Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Universitetdən bildirilib ki, görüşdə BDU-nun rektoru Elçin Babayev, elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Biomühəndislik elmi-tədqiqat laboratoriyasının müdiri, Botanika və bitki fiziologiyası kafedrasının müdiri Elşad Qurbanov, biologiya fakültəsinin dekanı vəzifəsini icra edən Səbinə Ömərova, Cənubi Bohemia Universitetinin rektoru Bohumil Jirousek və beynəlxalq əlaqələr üzrə prorektor Radka Zavodska iştirak ediblər.

Görüş zamanı universitetlər arasında yeni əlaqələrin qurulması, təhsil müəssisələrinin birgə fəaliyyət perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Rektor Elçin Babayev bildirib ki, hazırda BDU-nun biologiya fakültəsində 12 tədris laboratoriyası və 2 elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. E.Babayev biologiya fakültəsində parazitologiya, infeksiyalar biologiyası, biokimya, hidrobiologiya, hüceyrə biologiyası sahələri üzrə ikili diplom layihəsi haqqında məlumat verərək, görüşün əlaqələrin davamlı xarakter almasına böyük zəmin yaradacağını bildirib.

Daha sonra çıxış edən Cənubi Bohemia Universitetinin rektoru Bohumil Jirousek bu müqavilənin universitetlər arasında gələcək əməkdaşlıq üçün bir başlanğıc olduğunu bildirib: "BDU Azərbaycanın ən qədim təhsil ocağıdır, Cənubi Bohemia isə çox gənc universitetdir. Əminəm ki, qeyd olunan sahələrdə hər iki universitetin təcrübələrinə əsaslanaraq uğurlu layihələr həyata keçirilə bilər."

Görüşdə BDU ilə Cənubi Bohemiya Universiteti arasında magistr və aspirant mübadiləsinin asanlaşdırılması, ikitərəfli birgə simpoziumların, seminarların və konfransların, kurslar və tədris planlarının təşkili, tədqiqat layihələrində əməkdaşlıq, tədris fəaliyyətinin təşkili, akademik və inzibati heyətdə çalışan kadrların mübadiləsi istiqamətində əməkdaşlığın həyata keçirilməsi barədə razılıq əldə olunub.

# Apelyasiya Şurasının növbəti iclası keçirilib



Aprelin 9-da Təhsil nazirinin müavini, Nazirliyin Apelyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

"Microsoft Teams" platforması üzərindən keçirilən iclasda Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin Təhsil müəssisələri ilə iş sektorunda məsləhətçi vəzifəsinə namizəd Yusif Quliyevin, Zərdab Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Firqiyyə Sadıqzadənin, Siyəzən Rayon Təhsil Şöbəsində məsləhətçi vəzifəsinə namizəd Sahib Tağıyevin və İmişli Rayon Təhsil şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Bəhrəm Ədalət oğlunun müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. 1 nəfərin şikayətinin təmin olunması, 3 nəfərin şikayətinin təmin edilməməsi barədə Şura tərəfindən qərar qəbul olunub.

# Çin səfiri UNEC-ə kitablar hədiyyə edib



Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyi Çin ilə Azərbaycanın diplomatik münasibətlərinin 29-cu ildönümü və Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) kitablar hədiyyə edib.

Qədim Şərq ölkəsinin tarixi, mədəniyyəti, ədəbiyyatı, elmi, fəlsəfəsi, siyasəti, iqtisadiyyatı və texnologiyasından bəhs edən kitablar UNEC Kitabxana İnformasiya Mərkəzinə təqdim olunub.

Çinin Azərbaycandakı səfiri xanım Qo Min UNEC rektoruna ünvanladığı məktubda kitabların oxuculara böyük Şərqin qədim ölkəsinin zəngin tarixi və mədəniyyəti ilə tanış olmaq, müasir Çinin əsas inkişaf tendensiyalarını yaxından izləmək baxımından əhəmiyyətli olacağını bildirib. Səfir kitabların hər iki ölkənin gəncləri arasında qarşılıqlı anlaşmanın və ənənəvi dostluq münasibətlərinin möhkəmlənməsində mühüm rol oynayacağından əminliyini ifadə edib.

# LDU ilə Kars Kafkas Universiteti arasında onlayn dərslər

Lənkəran Dövlət Universiteti (LDU) qardaş Türkiyə Cümhuriyyətinin universitetləri ilə təhsil əlaqələrini genişləndirir. Belə universitetlərdən biri də ali məktəbin 2017-ci ildən əməkdaşlıq etdiyi Kars Kafkas Universitetidir.

İki universitet arasında ilk dəfə olaraq onlayn dərslərə start verilib. Dərslərə hər iki ali təhsil ocağından professor-müəllim heyəti, aqrar ixtisaslarda təhsil alan tələbələr qoşulub.

LDU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Zaur Məmmədov belə dərslərin davamlı olmasının vacibliyini qeyd edib.

Kars Kafkas Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, professor Hacəli Nəcəfoğlu da çıxışında mövcud pandemiya səbəbindən onlayn keçirilən tədbirin müsbət əhəmiyyətini yüksək qiymətləndirib, bunun tələbələrin hazırlıq səviyyələrinə, elmi və təcrübi biliklərinin, praktik vərdişlərinin yüksəlməsinə xidmət etdiyini bildirib.

Kars Kafkas Universitetinin baytarlıq fakültəsinin professoru İsa Özaydın fakültənin 3-cü tədris ili tələbələrinə Baytarlıq Cərrahiyəsi-1 fənnindən müvafiq mövzuda geniş məruzə edib. Slaydlarla müşayiət edilən məruzədə elmin son nailiyyətlərinə istinad olunub və bu, iştirakçılar tərəfindən maraqla qarşılanıb.

LDU-nun tədrisin təşkili və innovasiyalar üzrə prorektoru vəzifəsini icra edən dosent Elvin Əliyev, aqrar və mühəndislik fakültəsinin dekanı, dosent Balayar Şahbazov, dosent Rəhim Bilalov məruzə ətrafında fikirlərini bildiriblər.

Sonda professor İsa Özaydın sualları cavablandırıb.

SCIMAGO INSTITUTIONS RANKINGS

## Azərbaycanın 3 universiteti dünya reytinqində

Dünyanın nüfuzlu elm-təhsil müəssisələrinin “Scimago Institutions Rankings 2021” beynəlxalq reytinqi açıqlanıb. Reytinq İspaniyanın Milli Tədqiqat Şurası (CSIC), “Granada” Universiteti, III Karl adına Madrid Universiteti və dünyanın ən böyük elmi nəşriyyatlarından olan “Elsevier”in birgə əməkdaşlığı ilə hazırlanıb. Reytinqdə Azərbaycanın 3 universiteti yer alıb: Bakı Dövlət Universiteti (852), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (885), Azərbaycan Tibb Universiteti (899).

“Scimago Institutions Rankings 2020” reytinqi dünyanın bir sıra müstəqil və etibarlı mənbələrindən - beynəlxalq məlumat bazalarından son beş ildə verilən məlumatlar əsasında ali təhsil və elmi-tədqiqat müəssisələrini qiymətləndirən ən obyektiv reytinqlərdən biri hesab olunur. Bu reytinq dünyanın hər yerindən 7533 aparıcı universiteti və elmi təşkilatı əhatə edir.

Reytinqdə akademik və tədqiqat müəssisələri elmi-tədqiqat işlərini, innovasiya fəaliyyətini və sosial qarşılıqlı əlaqəni qiymətləndirən üç müxtəlif meyar dəsti üzrə sıralanır.

Reytinq üç istiqamət üzrə qiymətləndirilən 17 meyar üzərində qurulub:

1. *Tədqiqat işinin qiymətləndirilməsi meyarları - bu qrupa ümumi çəkisi 50% olan on bir meyar daxildir. Bu qrup üçün məlumat mənbəyi Scopus Scientometric verilənlər bazasıdır.*
2. *İnnovativ fəaliyyətin qiymətləndirilməsi meyarları - bu qrupa ümumi çəkisi 30% olan üç meyar daxildir. Məlumat mənbəyi PATSTAT verilənlər bazasıdır.*
3. *Sosial təsiri qiymətləndirmək üçün meyarlar - bu qrupa ümumi çəki əmsalı 20% olan üç veb göstərici daxildir. Məlumat mənbələri Google və Ahrefsdir.*

**Oruc MUSTAFAYEV**

## MDU-da “Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi” yaradılıb

Mingəçevir Dövlət Universitetinin (MDU) Elmi Şurasının martın 19-da keçirilən iclasında təhsilin məzmununda vətənpərvərlik tərbiyəsinin önəminin daha da yüksəldilməsi məqsədilə universitetin strukturunda “Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi”nin (TVİM) yaradılmasına dair qərar qəbul edilib. Həmin qərara əsasən MDU rektorunun əmri ilə sözügedən Mərkəz təsis edilib.

Universitetdən AZƏRTAC-a bildirilib ki, tələbə gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli, vətənpərvər vətəndaş kimi yetişdirilməsi işinə davamlı surətdə töhfə verməyi hədəfləyən TVİM-in başlıca vəzifələri qəhrəman şəhid və qazilərimizin gənc nəslə tanıdılması, onların göstərdikləri şücaətlərin təbliğ edilməsidir. Eyni zamanda, “Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzi” şəhidlərin adlarının əbədiləşdirilməsi, qazilərə xüsusi diqqətin göstərilməsi, tarixi günlərə həsr olunan müxtəlif formatlı tədbirlərin təşkili və digər müvafiq istiqamətlər üzrə fəaliyyətlərin icrası və əlaqələndirilməsini həyata keçirəcək.

MDU-nun məzunu Minayə Hüseynova TVİM-in koordinatoru vəzifəsinə işə qəbul edilib. O, 2011-2015-ci illərdə MDU-da “Ekologiya mühəndisliyi” ixtisası üzrə bakalavriat təhsili alıb.

M.Hüseynova Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan MDU-nun məzunu Əzəmi Hüseynovun həyat yoldaşıdır. Şəhid Ə.Hüseynov Azərbaycan Prezidentinin müvafiq Sərəncamları ilə “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə MDU-nun 4 əməkdaşı, 120-dən çox tələbə və məzunu iştirak edib, 5 məzunu şəhidlik zirvəsinə ucalıb.

Qəhrəman şəhidlərimizin əziz xatirəsinin ehtiramla anılması və onların adlarının uca tutulması, şəhid ailələrinə və müharibə iştirakçılarına diqqət göstərilməsi, cəsur əsgər və zabitlərimizin keçdikləri şərəfli döyüş yolları, göstərdikləri şücaət və vətənpərvərlik nümunələrinin tələbə gənclər arasında təbliğ edilməsi MDU-da daim diqqət mərkəzində saxlanılır.

# Ali təhsildə yeni imkanlar




## UFAZ magistraturasına qəbul başlayır

**Artıq bir neçə ildir ki, Azərbaycanın təhsil sistemində innovativ tədris mühiti ilə seçilən ali təhsil müəssisələrimizdən olan Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nəzdində Fransız-Azərbaycan Universiteti (UFAZ) yeni layihəyə başlayır. UFAZ bundan sonra tələbələrinə bakalavr təhsili ilə yanaşı magistratura səviyyəsində də yeni ixtisaslar təqdim edəcək. Magistratura səviyyəsində təqdim olunacaq ixtisaslar yeniliyi, dövrün çağdaş tələblərinə adekvatlığı ilə seçilir. Bütün bunlara aprelin 9-da Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun moderatorluğu ilə keçirilən Fransız-Azərbaycan Universitetində 2021-2022-ci tədris ili üçün magistratura pilləsinə qəbula dair canlı yayımda aydınlıq gətirilib.**

### Təhsil sistemimiz üçün uğurlu layihə

Tədbirdə çıxış edən Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli təhsilimizdə son illər uğurları ilə seçilən UFAZ layihəsi barədə məlumat verib. N.Məmmədli qeyd edib ki, Azərbaycan təhsil sisteminin verdiyi ən böyük imkanlardan biri də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Fransanın Universitetlər Konsorsiumunun birgə həyata keçirdiyi UFAZ layihəsidir. Bu layihə Azərbaycan və Fransa prezidentləri tərəfindən imzalanmış çərçivə sazişi əsasında mümkün olub. UFAZ artıq uzun müddətdir ki, qəbul prosesini həyata keçirir, ali məktəbin ilk buraxılışı olub. UFAZ əslində ADNSU və Fransa Universitetlər Konsorsiumu arasında ikili diplom proqramıdır. N.Məmmədli qeyd edib ki, bu, Azərbaycanın təhsil sistemində hər iki ölkənin prezidentlərinin təşəbbüsü ilə icrasına başlanılmış çox mühüm və böyük layihələrdən biridir və 4 ixtisas üzrə bakalavr pilləsinə qəbul həyata keçirilib. Bu müddət ərzində UFAZ-da Fransanın nüfuzlu ali təhsil müəssisələrindən olan Strasburq və Renn 1 universitetlərinin ən yaxşı müəllimləri təhsil veriblər. Hər il təxminən 70-100-ə yaxın müəllim UFAZ-a dəvət olunur və modul dərslər keçirlər. Eyni zamanda Azərbaycandan olan çox yüksək səviyyəli müəllimlərimiz də bu proqramda iştirak edirlər.

Şöbə müdiri hesab edir ki, bu layihə təhsil sistemimiz üçün ən yaxşı, mühüm imkanlardan biridir. Ona görə ki, birincisi, ikili diplom proqramı çərçivəsində dünyanın ən yaxşı təhsil sistemlərindən birinin tədris proqramları Azərbaycana gətirilir və ölkəmizdə həyata keçirilir. İkincisi, bu, UFAZ-da dövlət sifarişi əsasında təhsil alan tələbələr üçün çox yaxşı imkandır. Digər tərəfdən tələbələr həm Strasburq, həm də ADNSU-nun diplomlarını alırlar.

Ötən il magistratura pilləsinə ilk qəbul həyata keçirildiyini söyləyən şöbə müdiri qeyd edib ki, artıq fevral ayında magistraturaya ilk qəbul imtahanları təşkil olunub. N.Məmmədli diqqətə çatdırıb ki, məhz UFAZ layihəsinin uğurlu nəticələri nəzərə alınaraq 2018-ci ildə ölkə Prezidentinin sərəncamı ilə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” qəbul olunub: “UFAZ bizim çox uğurlu modellərimizdən biridir. İstər Azərbaycanın əmək bazarı, istərsə də Azərbaycan elmi üçün yaxşı kadrlar hazırlayan çox mühüm layihələrdən biridir”.

### Magistratura proqramı üçün ümumilikdə 80 yer ayrılıb

Qəbul imtahanları hansı tarixdə keçiriləcək? Dövlət İmtahan Mərkəzinin fevralda keçirilmiş imtahanında iştirak etməyənlər apreldə təşkil olunacaq imtahana qatıla bilərmi?

UFAZ-ın icraçı direktoru Vazeh Əsgərov bu suallara aydınlıq gətirib. UFAZ-ın artıq 5 ildir ki, fəaliyyət göstərdiyini deyən icraçı direktor bildirib ki, biz ötən il ilk bakalavr təhsilini bitirmiş tələbələrin diplomlarını təqdim etdik. Eyni zamanda, ilk dəfə olaraq UFAZ-da magistratura səviyyəsinə tələbə qəbuluna başlanılır. Bu il də magistraturaya 3 ixtisas üzrə qəbulun həyata keçirilməsi nəzərdə tutulub. Artıq 5 mart tarixindən 18 aprel tarixinədək namizədlər onlayn olaraq *ufaz.az* saytında birbaşa qeydiyyatdan keçə bilərlər. İcraçı direktor əlavə edib ki, biz bakalavr təhsili almış və yaxud hazırda da bakalavr təhsili alan tələbələri qeydiyyatdan keçməyə dəvət edirik. 18 aprel sənəd qəbulu üçün son tarix kimi nəzərdə tutulub. 22 apreldə isə UFAZ-da ikinci dəfə magistratura imtahanlarının canlı olaraq keçirilməsi planlaşdırılır. “Əlbəttə ki, indiki şəraitə uyğun olaraq hər hansı dəyişiklik etmək məcburiyyətində olarıqsa, bununla da bağlı biz bütün qeydiyyatdan keçmiş tələbələrə, namizədlərə öz məlumatlarımızı ötürəcəyik. 29 aprel tarixində artıq imtahan nəticələri bütün namizədlərə elan olunacaq. 5 may tarixinə qədər isə bütün namizədlərə təsdiqlə bağlı məlumatlar göndəriləcək”.

Bu il DİM tərəfindən magistratura pilləsi üzrə ikinci şans imtahanların iyun ayında keçirilməsi nəzərdə tutulur. DİM-in birinci imtahanlarında iştirak etməyən namizədləri belə UFAZ-ın keçirəcəyi daxili imtahanlarında iştirak etməyə dəvət edirik. İmtahanlarda uğur qazanmış tələbələr şərti olaraq UFAZ-a qəbul olunacaqlar. Belə ki, qəbul olmuş namizədləri yenidən DİM-in ikinci şans imtahanlarında iştirak etməyə dəvət edirik. Onlar qeydiyyatdan keçdikdən sonra artıq UFAZ-ın rəsmi tələbə statusunu qazanacaqlar. Eyni zamanda bu, təkcə DİM imtahanında iştirak etməmiş tələbələrə deyil, bakalavr təhsilini Azərbaycan və rus dillərində almış, TOEFL və ya IELTS sertifikatı əldə etməmiş tələbələrə də şamil olunur. Bu nöqteyi-nəzərdən də biz bu kateqoriyaya daxil olan tələbələri magistratura səviyyəsi üçün UFAZ-da qeydiyyatdan keçməyə dəvət edirik. Bu kateqoriyadan olan insanlar üçün sonradan qəbul olunduqları təqdirdə biz sənədlərin yenidən təqdim edilməsi ilə bağlı bütün lazımı məsələləri görəcəyik.

V.Əsgərov qeyd edib ki, Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi magistratura imtahanından 50-dən artıq bal toplayan hər kəs UFAZ-ın Strasburq Universiteti (Unistra) tərəfindən təşkil olunan ikinci daxili imtahanında iştirak edə bilər. Təhsili ingilis dilində olmayan namizədlərdən (Azərbaycan və rus bölməsi) UFAZ-a qəbul zamanı minimum 6.5 bal IELTS / 80 bal TOEFL nəticəsi tələb olunur.

UFAZ-a qəbul imtahanı, seçilmiş magistr ixtisaslarını əhatə edən test suallarından ibarətdir. Magistratura proqramı üçün ümumilikdə 80 yer ayrılıb və bütün yerlər ödənişsizdir. UFAZ-ın qəbul imtahanında iştirak edən və seçilməyən tələbələr Azərbaycandakı digər ali təhsil müəssisələrinə müraciət etmək şansını itirməyəcəklər.

Magistratura səviyyəsində təqdim olunan ixtisaslara gəlincə, icraçı direktor qeyd edib ki, bunlar çox maraqlı ixtisaslardır və bəziləri Azərbaycanda çox yenidir - kimya mühəndisliyi/fiziki-kimya, tətbiqi kompüter elmləri - buraya böyük verilənlər bazası və süni zəka daxildir, eləcə də yer elmləri - geofizika və ümumi yer elmləri.

Daha sonra UFAZ-ın Baş katibi Elizaveta Bydanova UFAZ-ın yaranması, tədris mühiti, proqramları və ənənələri, eləcə də azərbaycanlı gənclərin ikili diplom proqramından yararlandığı, 4 Nobel mükafatı laureatının çalışdığı Strasburq Universiteti, bu ali məktəbdə təhsilin üstünlükləri barədə ətraflı təqdimat edib.

**Oruc MUSTAFAYEV**

# Təhsil İnstitutu: tarixilik və müasirlik müstəvisində



**Ənvər ABBASOV,**
*Təhsil İnstitutunun direktor müavini*

Dünya sivilizasiyası tarixində qədim elmi, mədəniyyəti ilə fərqlənən Azərbaycan həm də özünəməxsus təhsil ənənələri ilə digər ölkələrdən seçilir. Şərq, İslam ənənələri ilə zəngin olan və dünya təhsil mədəniyyətinin birincisi kimi formalaşan Azərbaycan təhsilinin klassik inteqrativ məzmunu, dəyərlərə söykənən tədris modelləri maraqlı öyrənmə mexanizmləri kimi bu günə qədər gəlib çatmışdır. Zaman bu tədris, təlim modellərini sınaqdan çıxarsa da, onun xüsusi tədqiqat obyektinə çevrilməsinə, bir sistem halında öyrənilməsinə, yeniləşdirilməsinə yalnız ötən əsrin əvvəllərindən başlanılmışdır.

## İnstitutun təşəkkülü və ya ilk illər

XX əsrin 20-ci illərinin əvvəllərində Bakı Dövlət Universiteti, daha sonra Azərbaycan Dövlət Pedaqoji Universiteti yaradılmışdır. Bu dövrdə respublikamızda aparılan quruculuq işlərinin məntiqi davamı kimi məktəb və maarifin nəzəri və praktik məsələlərini, eləcə də inkişaf istiqamətlərini öyrənən pedaqoji elmlərin formalaşması ehtiyacı meydana çıxmışdır. Bu zərurətə uyğun olaraq Azərbaycan SSR Xalq Maarif Komissarlığının əmri əsasında 1931-ci il iyulun 1-dən Azərbaycan Xalq Maarif Komissarlığının Elmi-Tədqiqat Pedaqoji Kabineti və Bakı Xalq Maarif Şöbəsinin laboratoriyası əsasında indiki Azərbaycan Respublikasının Təhsil İnstitutunun bünövrəsi qoyulmuşdur.

İnstitutun tarixinə səyahət etmiş olsaq, 1931-1934-cü illəri onun təşəkkül dövrü adlandıra bilərik. Çünki bu dövrdə ÜİK(b)P MK-nın "İbtidai və orta məktəb haqqında" 1931-ci il tarixli, "İbtidai və orta məktəbdə tədris proqramları və rejim haqqında" 1932-ci il tarixli və "İbtidai və orta məktəblər üçün dərsliklər haqqında" 1933-cü il tarixli qərarları, ümumiyyətlə, məktəbin qurulmasını bir vəzifə olaraq qarşıya qoymaqla həmçinin orada müxtəlif aspektli pedaqoji, psixoloji araşdırmaların aparılmasını aktuallaşdırırdı. Eyni zamanda, bu işlərin təşkilinə və aparılmasına rəvac verə bilən qurumların yaradılmasını şərtləndirirdi. Elə bu səbəbdən də institutun açılması barədə qərar qəbul edilmişdir.İnstitut ilk dəfə 10 elmi işçi, 6 laborantla fəaliyyətə başlamış, pedaloji məsləhət şöbəsindən ibarət olmuşdur. Sonralar onun əsasında üç şöbə (pedalogiya, pedaqogika, uşaq kommunist hərəkatı) yaradılmışdır. Pedalogiya şöbəsinin tərkibində psixologiya, pedalogiya, kino və uşaqlar (kino və teatr), məktəbəqədər tərbiyə, pedaqogika şöbəsinin nəzdində isə politexnizm, tədris kitabı və proqram qrupu, proqram-metodika qrupu, maarifin tarixi qrupu fəaliyyət göstərmişdir. İnstitutun ilk direktoru Surxay Hacıyev olmuşdur.

1932-ci il 2 fevral tarixindən institutun aspiranturası yaradılmış və elmi-pedaqoji kadr hazırlığına başlanılmışdır. İnstitutun aspiranturasına ilk yeddi nəfər (Ə.Seyidov, M.Mehdizadə, M.Tahirli, Z.Axundova, Q.Hüseynov, M.Məcidov, A.Prunis) qəbul edilmişdir. Sonralar elmi-pedaqoji kadr hazırlığı institutda bir ənənəyə çevrilmişdir ki, bu gün mindən çox fəlsəfə və elmlər doktoru institutun yetirməsi kimi ölkəmizin müxtəlif təhsil müəssisələrində fəaliyyət göstərir.

1932-ci ildə institutun Naxçıvan filialı yaradılmış, bununla da pedaqoji araşdırmaların arealı genişləndirilmişdir. Artıq 1934-cü ildə regionlarda pedaqoji kabinetlər yaradılmağa başlamış və məktəbin metodik infrastrukturunun qurulmasını istiqamətləndirən belə bir qurumun formalaşdırılmasında institut yaxından iştirak etmişdir.

1934-cü ildə İnstitutun Elmi Əsərləri nəşrə başlamışdır. Bu, əslində, institutun həyatında mühüm hadisə idi. Pedaqoji araşdırmalar aparmaq, onun nəticələrini ümumiləşdirərək məktəbin, müəllimin diqqətinə çatdırmaq, həmçinin pedaqogika elminin müddəalarının zənginləşdirilməsində onlardan istifadə etmək, bütün bunlarla yanaşı, hökumətin məktəb haqqında qərarlarına istinad etmək, qabaqcıl müəllimlərin iş təcrübəsini öyrənib ümumiləşdirməklə yaymaq üçün bu Elmi Əsərlərdən istifadə olunurdu. Elmi Əsərlər Ali Attestasiya Komissiyasının tanıdığı nüfuzlu məcmuə kimi bu gün də nəşr olunmaqdadır.

1935-ci ildə institutun Elmi Şurasının yaradılması da mühüm hadisə idi. Çünki bu ali orqanın formalaşması ilə kollegial elmi idarəetmənin imkanları genişləndi və pedaqoji, psixoloji tədqiqatların keyfiyyətini yüksəltmək məqsədi ilə müzakirələrin keçirilməsi üçün şərait yarandı.

İnstitut 1933-34-cü illərdən etibarən öz tədqiqatçılıq fəaliyyətinə aşağıdakı məsələləri öyrənməklə başladı. Bu işdə həm yerli, həm də başqa ölkələrdən gəlmiş tədqiqatçı-pedaqoqlar fəal iştirak etdilər.

1. *Politexnik təhsil məsələləri (B.Komarovski)*
2. *Türk (Azərbaycan) məktəblərində türk (Azərbaycan) dilinin tədrisi metodikasının əsas problemləri (B.Çobanzadə)*
3. *Məktəbdə tarixin tədrisinin psixoloji əsasları (A.Makovelski)*
4. *Fizika müəllimlərinin ixtisasının artırılmasının əsas vəzifələri (prof. B.Komarovski)*
5. *Stabil proqramlarla əlaqədar riyaziyyat müəllimlərinin ixtisasının artırılmasının növbəti vəzifələri (prof. A.Amosov)*
6. *Məktəbdə çətin uşaqlar və onlarla mübarizənin yolları (F.İbrahimbəyov)*
7. *Savad təlimi (V.Mustafazadə, Ə.Həsənov)*

Göründüyü kimi, institutun fəaliyyətə başladığı ilk illərdə onun tədqiqat problematikası o dövrün tələblərinə uyğun olaraq həm politexnik, əmək təhsili məsələlərinə, həm də fənlərin tədrisi, onların psixoloji xüsusiyyətlərinin öyrənilməsinə yönəlmişdir. Hətta zamanın vacib məsələsi kimi savad təliminin də metodik xüsusiyyətlərini tədqiq etmək zəruri hesab edilmişdir.

Məlum olduğu kimi, pedaqoji problemlərin xüsusiyyətlərini araşdıran peşəkar təhsil tədqiqatçılarının kifayət qədər olmaması da o dövrdə institutun elmi təşkilində və fəaliyyətlərin qurulmasında çətinliklər yaradırdı. Ona görə də rus, yəhudi və digər millətlərdən olan alimlərin instituta dəvət olunmasına, həm pedaqoji, psixoloji tədqiqatların aparılmasında, həm də yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında onlara müraciət edilməsinə diqqət yetirilirdi.

### İnstitutun adındakı dəyişikliklər

İnstitut 1931-ci il iyulun 1-də Azərbaycan Elmi-Tədqiqat Pedalogiya İnstitutu adı ilə fəaliyyətə başlamış və onun adında dəfələrlə dəyişikliklər edilmişdir.

1931-ci ildən Azərbaycan Elmi-Tədqiqat Pedalogiya İnstitutu, 1932-ci ildən Azərbaycan Pedalogiya və Pedaqogika İnstitutu, 1933-cü ildən Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1934-cü ildən Azərbaycan Pedalogiya və Pedaqogika İnstitutu, 1936-cı ildən V.İ.Lenin adına Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1938-ci ilin yanvarından Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1938-ci ilin iyunundan Azərbaycan SSR Maarif Nazirliyinin Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəblər İnstitutu, 1946-cı ildən Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1951-ci ildən Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1977-ci ildən Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu, 2000-ci ildən Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu və nəhayət, 2016-cı ildən Azərbaycan Respublikasının Təhsil İnstitutu adlandırılmışdır. Lakin institutun adında edilən bu cüzi dəyişikliklər mahiyyət etibarı ilə onun tədqiqatçılıq funksiyasını dəyişməmişdir. İlk illər eksperimental pedaqogikanın nəticəsi kimi meydana çıxmış pedalogiya anlayışından istifadə olunmuş, 1936-cı ildən sonra bu elmə münasibətin dəyişməsi ilə bağlı ondan imtina edilmişdir.

Əslində institutun adında aparılan dəyişikliklər onun məzmun və struktur cəhətdən təkmilləşdirilməsi, daha optimal variantın axtarılması ilə bağlı olmuşdur ki, bu proses son dövrlərə qədər gəlib çatmışdır.

### Sistemli pedaqoji, psixoloji tədqiqatların başlanması

Təhsil İnstitutunun yaranması əslində ölkəmizdə təhsilə, pedaqoji, psixoloji elmlərə yeni yanaşmanı ifadə edirdi. Artıq təhsil prosesinin daha səmərəli qurulması onun elmi-nəzəri əsaslarının tədqiq olunmasını, zaman-zaman özünü büruzə verən və aktuallıq kəsb edən məsələlərin planlaşdırılmasını, sistemli olaraq öyrənilməsini zəruri vəzifə kimi qarşıya qoyurdu. Bu isə, öz növbəsində, institusional bir yanaşma tələb edirdi ki, Təhsil İnstitutu da belə bir zərurətdən yaranmışdı. O, ilkin olaraq pedaqoji, psixoloji problemlərin sistemli şəkildə araşdırılması prosesini özündə ehtiva edirdi. Orada tədqiqatların istiqamətləri, problematikası, tematik çeşidlənməsi xüsusi tələblərə uyğun olaraq aparılır, tədqiqatçılıq təcrübəsində istifadə olunmaq üçün qruplaşdırılırdı. İllər keçməsinə baxmayaraq, bu yanaşma daha da təkmilləşməklə bu gün də davam etdirilir və instituta xas olan peşəkarlıq kimi dəyərləndirilir.

### Müxtəlif zamanların ehtiyacları və Təhsil İnstitutu

Yarandığı gündən Təhsil İnstitutu özünün tədqiqatçılıq fəaliyyətini bir missiya olaraq yerinə yetirməyə başlamış, inkişaf tarixində təhsil tələbatlarına cavab verməyi bir kursa çevirmişdir. 30-cu illərdən sonra 40-50-ci illərdə vətənə məhəbbət, düşmənə nifrət ruhunda tərbiyə məsələləri ön plana çəkilmişdir. Təkcə humanitar deyil, təbiət, riyaziyyat fənlərinin də tərbiyə imkanları müharibədən sonrakı quruculuq illərində insanların əhvali-ruhiyyəsini yüksəltmək baxımından araşdırılmış, fənlərin məzmununa yeni materialların əlavə edilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

50-60-cı illərdə məktəbin həyatla əlaqələndirilməsi məsələsi gündəmə gəldiyindən institutun fəaliyyət istiqamətlərində bu cəhət nəzərə alınmışdır. Həmin illərdə kənd məktəblərində istehsalat təliminin təşkili, şagird briqadalarının, istehsalat sexlərinin, tədris emalatxanalarının yaradılması, ictimai-faydalı, məhsuldar əməyin təşkili, politexnik təlim, peşəyönümü üzrə məktəblərə praktik köməyin göstərilməsi sahəsində tədqiqatlar üstünlük təşkil etmişdir. 70-80-ci illərdə orta ümumtəhsil məktəbinin işini yaxşılaşdırmaq məqsədi ilə tədbirlərin həyata keçirilməsi, şagirdlərə elmlərin əsaslarına dair möhkəm biliklərin verilməsi, politexnik təlimin gücləndirilməsi, gənclərin peşə seçməyə hazırlanması, təhsilin məzmununun elmin, texnikanın və mədəniyyətin inkişaf tələblərinə uyğunlaşdırılması, yüksək keyfiyyətli stabil dərsliklərin hazırlanması sahəsində araşdırmalar aparılmışdır. Xüsusilə 70-ci illərdə elmi biliklər praktik əhəmiyyət nəzərə alınmadan dərsliklərə daxil edilmiş və bütün bunlar ümumtəhsil fənlərinin məzmununun ağırlaşması ilə nəticələnmişdir. Bununla əlaqədar olaraq institutda şagirdlərin yüklənməsinin qarşısının alınması, təlim yükünün azaldılması istiqamətində araşdırmalar aparılmışdır.

90-cı illər ölkəmizin tarixində bir sıra hadisələrlə əlamətdar olmuşdur. 1991-ci il oktyabr ayının 18-də ölkəmizdə ikinci dəfə dövlət müstəqilliyi əldə olunduqdan sonra yeni bir cəmiyyət yarandı. Müxtəlif sahələrdə olduğu kimi, təhsildə də islahatların aparılması zərurəti meydana çıxdı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın inkişafını sürətləndirdi. Bütün sahələrdə olduğu kimi, təhsildə də islahatlar həyata keçirildi. 1999-cu il 15 iyun tarixli, 168 nömrəli Fərmanla "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" təsdiq edildi. Bu proqramla Azərbaycanda həyata keçiriləcək təhsil islahatlarının konkret addımları müəyyənləşdirildi. Həmin addımlar isə 2000-ci ildən sonrakı dövrü əhatə edirdi.

Azərbaycan Respublikasının Prezidenti 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 349 nömrəli Fərman imzaladı. Bu Fərmanla 1931-ci ildən fəaliyyət göstərən Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu və Respublika Elmi-Metodik Mərkəzin bazasında yeni elmi təhsil müəssisəsi-Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu yaradıldı. Əvvəllər üç (Elmi-tədqiqat, Analitik-informasiya, Təşkilati-metodik), sonralar isə dörd (Nəzəri tədqiqatlar mərkəzi, Kurikulum mərkəzi, Tətbiqi tədqiqatlar, monitorinq və qiymətləndirmə mərkəzi, Texniki peşə təhsili mərkəzi) bölmədən ibarət bir elmi institut kimi fəaliyyət göstərdi. Bu dövrdə institutun fəaliyyəti, demək olar ki, bütövlükdə təhsil islahatından irəli gələn vəzifələrin həyata keçirilməsinə yönəldildi. Bu fəaliyyətləri başlıca olaraq dörd istiqamətdə qruplaşdırmaq olar: təhsil tədqiqatlarının aparılması, yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması, müxtəlif aspektli təhsil fəaliyyətlərinin və əldə olunan nəticələrin ekspertizası, müəllim kadrlarının peşəkarlığının artırılması.

Bu istiqamətlərdə görülən işlər beynəlxalq məsləhətçilik fəaliyyətinin dəstəyi ilə həyata keçirilirdi. Azərbaycanda nəticəyönümlü təhsil sisteminin qurulması üzrə işlər aparılırdı. İslahat Proqramına uyğun olaraq təhsilin bütün pillə və səviyyələri üzrə həm normativ-hüquqi bazanın yaradılması (1999), həm öyrədici-innovasiya mərhələsinin təşkili (2000-2003), həm də yeni standart və kurikulumların hazırlanması (2003-cü və ondan sonrakı illər) üzrə tədbirlərin reallaşdırılması nəzərdə tutulurdu. İlk dəfə olaraq Azərbaycan Respublikasında dərslik konsepsiyası, Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin Dövlət Standartı (Milli Kurikulumu), I-IV siniflər və eləcə də V-XI siniflərin standart və kurikulumları, ümumtəhsil şagirdlərinin qiymətləndirilməsi konsepsiyası, eləcə də ayrı-ayrı fənlər üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemləri və s. yaradıldı. Həmçinin, pedaqoji texnologiyalara dair araşdırmalar aparılaraq onun nəticələri müəllimlər üçün vəsait kimi nəşr olundu.

Ümumtəhsil fənlərinin tədrisi, təlim prosesində İKT-dən istifadə, fənn kurikulumlarının tədrisi vəziyyətinin öyrənilməsi, təlim prosesinin idarə olunması, monitorinq və qiymətləndirmənin məzmunu və təşkili, istedadlı şagirdlərin aşkara çıxarılması və inkişaf etdirilməsi,12 illik təhsilin problemləri, ilkin peşə təhsilində modul tipli texnologiyalardan istifadə olunmaqla kurikulumların hazırlanması kimi məsələlər tədqiqata cəlb olundu. Eyni zamanda, orta ixtisas təhsilinin məzmununun təkmilləşdirilməsi, müasir maliyyə sisteminin yaradılması, idarəetmə və planlaşdırma bacarıqlarının gücləndirilməsi, marketinq sisteminin formalaşdırılması, ali təhsildə məzmun islahatlarının aparılması və kredit sisteminə keçilməsi, təhsilin keyfiyyətinin idarə edilməsi, həmçinin təhsilin yeni məzmunu, təşkili və s. problemlər tədqiqata cəlb olundu.

2013-cü ildə "Azərbaycan Respublikasında ümumi təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul olunması ölkəmizdə həyata keçirilən təhsil islahatlarının davam etdirilməsi ilə bağlı yeni perspektivlər müəyyənləşdirdi. Səriştəəsaslı yeni təhsil məzmununun yaradılması, yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılması, təhsildə yeni idarəetmə sisteminin qurulması, müasir tələblərə cavab verən təhsil infrastrukturunun,yeni maliyyələşdirmə mexanizmlərinin yaradılması strateji istiqamətlər kimi konkretləşdirildi. İnstitut öz fəaliyyətini tamamilə bu istiqamətlərə uyğun olaraq planlaşdırdı. Bu gün də həmin yanaşma davam etməkdədir.

**(Ardı var)**

Qarabağ gündəliyi

# "Yaxınlığımdakı partlayış məni qayaya çırpdı"



**Vətən müharibəsinin qazisi Akif Quliyev 21 ildir müəllimdir. Elə doğulub boya-başa çatdığı Siyəzən rayonunda hərbi rəhbər kimi ad alıb, hörmət qazanıb. Yolu müharibənin od-alovundan keçib. 36 şagirdi ilə birlikdə gedib müharibəyə. Sadəcə müəllim kimi yox, zabit kimi də özünü göstərib. Azərbaycan Prezidentinin sərəncamları ilə "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Müharibəyə leytenant kimi gedib, baş leytenant olaraq qayıdıb. Ancaq medal və rütbə ilə bərabər, yara da alıb. Vətəni kimi, indi onun da yaraları yavaş-yavaş sağalır.**

## Qazi Akif Quliyev: "Məktəbdə yetişən vətənpərvər gənclər döyüşlərdə əsl qəhrəmanlıq göstərirdi"



### Fəal müəllim

Düz 21 ildir şagirdlərinə sağlam bədəndə sağlam ruh prinsipini aşıladığı Mikayıl Müşfiq adına 2 nömrəli Siyəzən şəhər tam orta məktəbin, Akif müəllimin rəhbərlik etdiyi gənc xilasedicilər komandası dəfələrlə ölkə birincisi olub.

Akif Quliyev 1977-ci ildə Siyəzən şəhərində müəllim ailəsində doğulub. Məktəb yaşı çatanda ailəsi onu daha yaxşı təhsil alması üçün Bakıya gətirib 4 nömrəli Ərəb-fars təmayüllü internat məktəbinə (hazırda S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyası – *red.*) qoyublar. Ancaq 1990-cı ilin yanvarında Bakıda baş verənlər ailəni övladı ilə bağlı qərarlarına yenidən baxmağa məcbur edib. V sinif şagirdi Akif Quliyev təhsilinə Siyəzən şəhər 3 nömrəli tam orta məktəbində davam edib. Sonra Azərbaycan Dövlət Pedaqoji Universitetində hərbi fakültədə təhsil alıb. Hərbi və fiziki təlim müəllimliyi ixtisası üzrə təhsilini leytenant rütbəsində tamamlayıb. 1999-cu ildə doğulduğu rayona qayıdıb. Təyinat aldığı 2 nömrəli tam orta məktəbində fiziki tərbiyə müəllimi kimi işə başlayıb. 2007-2009-cu illərdə Naxçıvanda həqiqi hərbi xidmətdə olub. Quru qoşunlarında tağım komandiri leytenant Akif Quliyev ordudan tərxis olunan kimi məktəbə qayıdıb. O vaxtdan X-XI siniflərdə həm fiziki tərbiyə, həm də hərbi rəhbər olaraq fəaliyyətini davam etdirib: "Məktəbdə dərsdən yayınmağa çalışan, dəcəl, oxumağı sevməyən şagirdlərlə daha çox işləyirdim. Bir müəllim kimi yaxşı da nəticələr əldə elədim. Təhsil almağa marağı olmayan uşaqları idmana və hərbi dərslərə cəlb elədim. Məktəbimizdə komanda yaradıb bir çox ölkə əhəmiyyətli yarışlara qatıldıq. Fövqəlada Hallar Nazirliyinin təşkilatçılığı ilə ənənəvi olaraq hər il keçirilən "Gənc xilasedici və yanğınsöndürən" ümumrespublika yarışının 4 il dalbadal qalibi olmuşuq. FHN buna görə 2015-ci ildə məni təltif də edib. Rayon İcra Hakimiyyəti də, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti də fəaliyyətimi dəfələrlə qiymətləndirib. Ümumiyyətlə, məktəblərdə xilasedici komandamız məşhurdur. Bakı şəhərindəki istənilən məktəbdə bizim gücümüzü bilir".

### 36 şagirdi ilə müharibədə

Akif müəllim minlərlə azərbaycanlı kimi general Polad Həşimovun şəhidlik xəbərindən təsirlənərək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib. Müraciətində hər an torpaqlarımızın işğaldan azad olunması uğrunda savaşmağa hazır olduğunu bəyan edib: "Bir neçə müəllim yoldaşımla birlikdə gedib müraciət etdik. Alnımızdan bu qara ləkəni təmizləməliydik. Bunu biz eləməsək, övladlarımızın boynunda qalacaqdı. 2020-ci il sentyabrın 25-də zəng gəldi. Təlimlərə cəlb olunacağımızı bildirərək "hazırlaşın", dedilər. Mən də hər zaman hazır olduğumu söylədim. Ayın 28-də səhər saat 5-də çoxdan gözlədiyim o zəng gəldi. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən hərbi hissəyə 36 şagirdimlə birlikdə yola düşdük".

### Füzulidən başlayan döyüş yolu

"Ən ağır döyüşlər Füzuli istiqamətində olub", - deyir. 41 günlük döyüş yolunun 24 gününü Füzuli uğrunda döyüşüb: "Füzuli uğrunda döyüşlərdə itkimiz çox olsa da, nailiyyətlərimiz də böyük oldu. Şəxsi heyətin istifadə etdiyi və döyüşdə sıradan çıxan hər silahımızın yerinə ermənilərdən 4-5 yeni silah götürürdük. Qənimət olaraq ələ keçirdiyimiz həmin silahların böyük əksəriyyəti təptəzəydi".

Sonra Hadrut, Qubadlı, Şuşa uğrunda döyüşlərdə iştirak edib: "Hadrut, Narlıq uğrunda döyüş əməliyyatlarına qatıldım. Narlıq uğrunda döyüş çox ağır oldu. 20-dən çox yaralımız oldu həmin döyüşdə. Beton istehkamları yarmaq çətin idi. Ancaq ruhdan düşmədik. Qoyulan tapşırığı yerinə yetirdik. Öndə xüsusi təyinatlılar, onların arxasınca biz gedirdik. "Üçtəpə" ərazisinin də alınmasında iştirak etdim".

### Daşaltıda partlayan minamyot yolunu kəsdi

Nəhayət, Füzulidən başlayan döyüş yolunu Daşaltıda minamyot partlayışı dayandırıb: "Topxana meşəsindən keçib Şuşanı işğaldan azad etməliydik. Tapşırığa görə biz Daşaltı kəndini götürüb Şuşaya giriş-çıxışı bağlayacaqdıq. Həmin əməliyyatda yaralandığım üçün axıra qədər iştirak edə bilmədim. Yaxınlığımda baş verən partlayış məni qayaya çırpdı. Huşumu itirmişdim. Məni döyüş bölgəsindən xüsusi təyinatlıların şəxsi heyəti çıxarıb. Başımda qəlpə yaraları vardı. Qayaya çırpıldığımdan onurğam da zədələnmişdi. Kəllə-beyin travması almışdım. Bir ay danışa bilmədim".

### "Yara aldıqlarını gizlədirdilər ki, döyüşdən çıxarılmasınlar"

Qəhrəman müəllim döyüşdə dəfələrlə ölümlə burun-buruna gəlib. Şəhid olan, yaralanan döyüşçü dostlarını indi adı ilə yox, qəhrəmanlıqları ilə xatırlayır: "Şəhidimiz, yaralılarımız çox oldu. Ancaq bu müharibə millətimizin necə qəhrəman oğullara sahib olduğunu bir daha göstərdi. Müharibədə bir daha şahid oldum ki, dəcəl, ipə-sapa yatmaz uşaqları fiziki və hərbi hazırlıq dərslərinə cəlb etməklə indiyədək doğru yolda olmuşam. Vətənpərvər yetişdirmək üçün illah da kitabı sevən uşaqlar seçməyimizə ehtiyac yoxdur. Məktəbdə yetişən vətənpərvər gənclər döyüşlərdə əsl qəhrəmanlıq göstərirdi. Yaralanır, amma yara aldıqlarını gizlədirdilər ki, döyüşdən çıxarılmasınlar. Minalanmış ərazidə döyüşçülərimizdən biri minaya düşdü. Ayaqları qopmuşdu, amma sağıydı. Ona köməyə getmək istəyənlərə "Gəlməyin" deyə qışqırırdı. Bilirdi ki, onu xilas etməyə getmək ölmək deməkdir. Onu ərazidən çıxarmağa getməsinlər deyə özünü vurdu".

### Xəstəxana otağına sızan qələbə xəbəri

Danışa bilməsə də, qələbə xəbərini paylaşmaq üçün özünü danışmağa, gülməyə, düşüncələrini deməyə məcbur edib: "Psixoterapiyada yatırdım. Ən sevincli xatirələrimdən biridir qələbə xəbərini eşitdiyim o anlar. Gecə saat 3 olardı. Otağıma gəlib Ermənistanın məğlub olduğunu xəbər verdilər və məni də təbrik etdilər. O an keçirdiyim hissi sözlə ifadə eləmək olmur. Danışa bilməsəm də, fikrimi ifadə eləməyə, sevincimi paylaşmağa çalışırdım".

Beləcə, qələbə sevincindən sonra da müalicəsi davam edib qazi müəllimimizin: "41 gündə yaxınlığımda çox mərmi partlamışdı. Hər dəfə həkimə müraciət etmirdim. Son partlayışın nəticəsi bir az da bu səbəbdən ağır olmuşdu. Həkim dedi mənə də. Vaxtında müraciət etmədiyimi söylədilər. Müalicəm fevral ayında bitdi. Fevralın 8-də Şuşadaydım. Döyüş yoldaşlarım da ordaydı. Amma çox qalmadım. Tərxis olundum və fevralın 9-da geri qayıtdım".

### Qələbəmiz yaralarımıza məlhəm olacaq

Ara-sıra müalicəsi davam edəcək Akif müəllimin. Müharibədən aldığı yaraların yeri bəlkə hələ çox sızıldayacaq. Ancaq bu sızıltı birlikdə getdiyi 36 şagirddən müharibədə qalanların yeri qədər dərin olmayacaq. Sızıldayan hər yaraya MİLLƏT OLARAQ qazandığımız qələbəmiz, bitməyən sevgimiz, tükənməyən qayğımızla məlhəm olacağıq.

**Ruhiyyə DAŞSALAHLI**

# "Təhsilli olmaq, hər zaman oxuyub öyrənmək çox vacibdir"




**"Yeni çağırışlar" onlayn müzakirə proqramının növbəti qonağı, dünyanın ikinci ən zəngin adamı, "Space X" və "Tesla" şirkətlərinin qurucusu İlon Maskın anası Mey Mask həyat təcrübəsini, uğur qazanmağın yolları ilə bağlı düşüncələrini paylaşıb. Təhsil Nazirliyinin dəstəyi və T-Network təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə T-Network koordinatoru Cəfər Mənsiminin təqdimatında davam edən "Yeni çağırışlar" proqramının 14 aprel 2021-ci il tarixində yayımlanan bölümündə uğurlu övladları necə yetişdirmək, onlara nə cür nümunə olmaq, parlaq gələcək qurmaq üçün düzgün plan tərtib etmək haqqında danışılıb. Xanım Mask izləyiciləri daha uğurlu, daha inadkar, daha təşəbbüskar, daha sağlam və macərəpərəst olmağa səsləyib. Təhsil Nazirliyinin "Facebook" səhifəsindən canlı yayımlanan görüş Mətin Axundlunun tərcüməsi ilə Azərbaycan dilində təqdim olunub. Görüşün informasiya dəstəkçisi "Belə-belə işlər" olub.**

## "Yeni çağırışlar"da növbəti qonaq yazıçı, beynəlxalq bestseller müəllifi, dietoloq və model Mey Mask olub

### Kosmosa göndərilən milli musiqimiz

Görüşün giriş hissəsində Kamil Cəlilovun balaban ilə çaldığı "Çahargah ahəngi" adlı əsəri fon musiqisi kimi səsləndirilib. Proqramın aparıcısı Cəfər Mənsimi milli Azərbaycan libasında xanım qonağı salamlayaraq dəvəti qəbul etdiyi üçün ona təşəkkürünü bildirib. Səsləndirilən musiqi haqqında Mey Maska məlumat verən aparıcı bu əsərin 1977-ci ildə NASA-nın Voyager 1 peyki ilə kosmosa göndərilən qızıl plastinkada yer aldığını diqqətə çatdırıb. Daha sonra Cəfər Mənsimi qonağı izləyicilərə təqdim edərək bildirib ki, Mey Maskın bestseller olan "Bir qadın plan qursa" kitabı 70-dən çox dilə tərcümə olunub. Hazırda "Bir qadın plan qurarsa" kitabı Jalə Əsgərovanın təşəbbüsü ilə Azərbaycan dilində çapa hazırlanır.

Aparıcı onu da izləyicilərin diqqətinə çatdırıb ki, Mey Mask öz fəaliyyəti ilə informal təhsilin inkişafına xüsusi töhfə verir. O, bir çox cəmiyyət, dərnək, xəstəxana və universitetlərdə yazıçı, sahibkar, qida eksperti və moda simvolu kimi təqdimatlar edir.

Mey Mask maddi mənfəət güdməyən iki qlobal təşkilatın - məktəblərdə tərəvəz və meyvə bağları quran "Böyük yaşıllıq" (Big Green) və bir milyondan çox qadını əhatə edən, müxtəlif fərdi peşə inkişafı proqramları və iş geyimləri təqdim edərək iqtisadi müstəqillik qazanmağa dəstək olan "Uğur üçün geyim" (Dress for Succes) şəbəkəsinin elçisidir. 45 ildən çoxdur ki, dietoloq olaraq öz qurduğu qidalanma biznesi təcrübəsi əsasında müxtəlif ölkələrdə çıxışlar edir, bu istiqamətdə məqalələr yazır, məsləhətlər verir. 15 yaşından modellik fəaliyyəti ilə də məşğul olan xanım Mask 60 yaşlarında Times Meydanında yer alan 4 reklam lövhəsinin siması olaraq rekord vurub.

### Ailə nümunəsi

Həyatını dəfələrlə sıfırdan başlayan qonaq pozitiv düşüncə, inam, başqalarını dəstəkləmək və kəşf etmək xüsusiyyətlərini necə formalaşdırdığı barədə danışarkən bildirib ki, o, çox nəzakətli, nəcib, mehriban valideynlərə malik kanadalı ailədə böyüyüb, sonradan Cənubi Afrikaya köçüb: "Ailədə 5 uşaq olmuşuq. Valideynlərimiz bizi xeyirxahlıq, hörmət və ehtiram ruhunda böyüdüb. Onlar bizə istənilən işlə məşğul olmağa şərait yaradıblar, müxtəlif sosial tədbirlərdə iştirakımızı təmin ediblər. Kiçik yaşlarımızdan bizi işləməyə sövq ediblər. Məsələn, mən 8 yaşımdan iş həyatına atılmışam.Atamın birmühərrikli hərbi təyyarəsində Cənubi Afrika, Asiya, Avropa, Avstraliyanı yalnız xəritə istifadə edərək səyahət etmişik. Bütün bunlar bizdə macəraçılıq ruhu formalaşdırıb".

Xanım Mask məktəb illərində çox yaxşı oxuduğunu, kifayət qədər intizamlı olduğunu, hətta 7 yaşında 10 yaşlı sinif şagirdlərinə riyaziyyat və oxudan kömək göstərmək üçün məktəbin ondan dəstək istədiyini bildirib. Yaxşı oxusa da, uşaqlıqda rəsm çəkə bilmədiyini, gözəl rəsm çəkənlərin isə riyaziyyatı yaxşı bilmədiyinə təəccübləndiyini söyləyib.

Yazıçı hər bir insanın içində kəşf olunmamış istedad olduğunu xüsusi vurğulayaraq qeyd edib ki, ailədə beş uşaq olduqları halda hərəsi fərqli istiqamətlərdə müxtəlif maraqlara sahib olub və valideynləri onların bu maraqlarını dəstəkləyib.

Sonradan Kanadaya qayıdaraq Toronto Universitetində tədqiqat və araşdırmalarla məşğul olduğunu dilə gətirən qonaq övladlarına sərbəstlik verdiyini vurğulayıb: "Həmin dövrdə mən övladlarıma dedim ki, siz seçiminizdə sərbəstsiniz. Gedin tələbə təqaüdü qazanın və oxuyun. İlon biznes və fizika, Kimbal biznes, Toska isə film istehsalı sahəsini seçdilər. Kimbal bizneslə yanaşı aşpazlıqla çox maraqlanırdı və elə oldu ki, aşpazlıq kurslarına qatıldı, sonradan restoran şəbəkəsi yaratdı, restoranlarını meyvə-tərəvəzlə təmin etmək üçün tərəvəzçiliklə məşğul oldu, məktəblərdə tərəvəz və meyvə bağları quran və mənfəət güdməyən "Böyük yaşıllıq" (Big Green) adlı qlobal təşkilat qurdu".

### Uğurun sirri

Aparıcının "Uşaqlarınıza hansı xüsusiyyətlərinizlə rol modelisiniz?" sualına cavab olaraq yazıçı bildirib ki, əslində o heç vaxt özünü övladları üçün rol modeli görməyib. "Sadəcə mən övladlarımı məsuliyyətli və özlərinə inamlı olmağa, onları öz qərarlarını özlərinin verməsinə təşviq etmişəm. Onların ev tapşırıqları ilə maraqlanmamışam. Bu məsuliyyət onların özlərində olub. Övladlarım xüsusi maraq göstərdikləri fənləri diqqətlə öyrənib, araşdırmalar aparıblar. Mən də həmişə işləmişəm və onlar bunu görüb. Ailəmizdən bizə keçən zəhmətkeş, digər insanlara qarşı nəciblik və səmimiyyət xüsusiyyətləri övladlarımda da var. Mən onların zəhmətkeşliyinə çox sevinirəm".

### 98 yaşında əlavə təhsil

Mey Maskın uşaqlarının təhsilə marağının necə formalaşdırması, onların uğurlu olması üçün başqa hansı addımları atması barədə sualı xanım Mask belə cavablandırıb: "Mənim anam 96 yaşına kimi işləyib, 98 yaşında əlavə təhsil almağa başlayıb. Mən anamın dəst-xəttini davam etdirirəm, hazırda da oxuyuram, öyrənirəm. Mənim də bu xüsusiyyətlərim övladlarıma keçib. Övladlarım da daim oxuyur, öyrənirlər və bu yolda biz bir-birimizi dəstəkləyirik. Mən görürəm ki, onların etdikləri dünyaya yalnız fayda gətirir. Onu da qeyd edim ki, övladlarımı uşaqlıqdan iş həyatına cəlb etmişəm. Özüm çox məşğul olduğum üçün uşaqlarımın hərəsi evdə bir işlə məşğul olub. Kimbal yemək bişirib, İlon texnoloji işlərlə məşğul olub, Toska isə telefon zənglərinə cavab verib və s.".

Yazıçı, model övladlarının uğurunu onların inadkar və əzmkar olmaları ilə əlaqələndirib. O bildirib ki, bütün rədd cavablarına baxmayaraq onlar yollarından dönməyiblər. İlon Maskın internet şirkəti qurduğu dönəmlərdə investisiya, kapitala çox ehtiyac duyurdu, insanlar kompüterdən hələ yaxşı istifadə edə bilmədiyi vaxtlarda İlon onları internet üçün kapital qoymağa inandırmağı bacarmışdı. Qızı Toska film istehsalı şirkəti yaradanda rədd cavablarına baxmayaraq sonradan insanların razılığını almağa nail olmuşdu.

Oğlu İlonun Mars xəyallarının reallaşmasında atasının təyyarəsinin xüsusi rolu olduğunu bildirən qonaq əlavə edib ki, macəraçı ruhu İlona da, Meyə də xanım Maskın atasından keçib.

Çətinliklərindən danışan qonaq ikinci əl geyim və kitablar almaq məcburiyyətində qaldığını, əslində kitab yazanda həyatındakı mənfi hadisələri səhifəsinə köçürmək niyyətində olmadığını qeyd edib. Lakin övladlarının, redaktorun israrından sonra bu barədə yazmaq qərarına gəlib: "Bəli, mən qeyd etdiyiniz çətinlikləri yaşamışam. Hətta kitabım nəşr olunduqdan sonra bacım, qardaşım biz bilmirdik ki, sən bu qədər çətinliklər yaşamısan dedilər. Çünki pozitiv olmağı, neqativ məsələlər barədə danışmağı sevmirəm. Buna görə bu barədə onlara nəsə deməmişdim. Sadəcə ona əminəm ki, əgər yeməyə çörəyin, başının üzərində tavan varsa, bu xoşbəxtliyin təməlidir, başqa şeylər lüks və komfortdur".

70-dən çox dilə tərcümə edilən kitabı yazmağa necə qərar verdiyi barədə də danışan betseller müəllifi qeyd edib ki, onun kitab yazmağa heç fikri də olmayıb. Sadəcə, ədəbiyyat agentliyi Mey Maskın müsahibələrini, məqalələrini izləyib və bütün bunları kitab formasına salmağı ondan xahiş edib: "Sözün açığı, təsəvvür edə bilməzdim ki, kitabım dünyada bu qədər əks-səda doğuracaq. Kitabım Azərbaycana qədər gəlib çıxıb. Böyük həyəcan, coşqu ilə kitabımın Azərbaycanda nəşr olunmasını gözləyirəm. Həqiqətən insanlar, xüsusən qadınlar həyatlarındakı dalan vəziyyətləri, çətinlikləri paylaşmalıdır ki, onlara çətin vəziyyətdə dəstək dursunlar, çətinlikləri dəf etməkdə kömək etsinlər".

"Niyə plan qurmağı bu qədər xüsusi vurğulayırsınız?" sualına xanım yazıçı özünəməxsus cavab verib: "Əgər həyatda hər şey sizi qane edirsə, plana ehtiyac yoxdur. Əgər həmin həyatda döngələr varsa, bu döngələrdən düzgün çıxmaq üçün plan lazımdır. Əgər siz məyus qalmaq istəmirsinizsə, plan qurmalısınız. Bir plan baş tutmursa, planı dəyişmək lazımdır. Bu, həyatın tələbidir".

### Sağlam qidalanma ilə bağlı dərslərin olması önəmlidir

Qızların təhsilə daha çox təşviq edilməsi üçün başqa nə etmək lazımdır sualına cavab olaraq Mey Mask deyib ki, qadınlar da kişilər kimi maariflənməlidirlər, qadınlar durmadan təhsil almalı, inkişaf etməlidirlər. Nə qədər qadın rəhbərlər, direktorlar, şirkət müdirləri çox olarsa, bu dünya o qədər xeyirxah olacaq. Həyatda kişilərin də, qadınların da rolu böyükdür. Qadınlar nə qədər yaxşı təhsil alsalar, dünyanın güzəranı da yaxşı olacaq. Sadəcə təhsilin önəmini daha çox çatdırmalıyıq. Paylaşmaq, ünsiyyət, etibar çox vacibdir. Onu da devizə çevirməliyik ki, maraqlı olmaq gözəl olmaqdan daha vacib, daha füsunkardır. Bəzən zahirən çox gozəl bir şəxslə söhbət etdikdən sonra heç nəyə marağının olmadığının, biliksiz olmasının şahidi oluruq. Bəzən isə, əksinə, zahirən heç də gözəl olmayan şəxsin biliyi, dünya görüşü o qədər zəngin olur ki, sizi məftun edir. Daxili füsunkarlığı zahiri görünüşünə siraət edir. Bu baxımdan, təhsilli olmaq, hər zaman oxuyub öyrənmək çox vacibdir.

O, aparıcının "Amerikada aparılan tədqiqatların birində məktəblərdə sağlam qidalanmanın yer alması xüsusilə tövsiyə edilir. Bir dietoloq olaraq bu barədə nə düşünürsünüz. Sizcə, sağlam qidalanma dərslərinə nə qədər ehtiyac var?" sualını belə cavablandırıb: "Sağlam qidalanma həyati zərurətdir. Sağlamlıq zənginlikdir. Düzgün qidalanma sağlamlığın təməlidir. Bununla bağlı müxtəlif dietalar var, bunları bilmək lazımdır, qənaətli olmaqla elə qidalanmaq lazımdır ki, yediyiniz sizə fayda gətirsin. Bu baxımdan məktəblərdə belə dərslərə çox ehtiyac var".

### Marsda məktəb

Müəllimlərin şagirdlərdə necə estetik zövq formalaşdıracaqları məsələsinə də aydınlıq gətirən model öncə Azərbaycanda vahid məktəbli forması olub-olmamağı ilə maraqlanıb. O bildirib ki, məktəblinin gözəl, səliqəli geyinməsi, saçlarının qaydasında olması çox vacibdir. Yazıçının uşaqlıq dövrlərində Cənubi Afrika bu cəhətdən geri qaldığı üçün, Mey yeniyetmə olanda paltarlarını özü tikib hazırlayırmış: "Macəraçı ruhuna köklənmək, daim kəşf etmək estetik zövqün formalaşdırılmasına da xüsusi töhfə verir".

Aparıcının "Əgər Marsda məktəb qurulsa, o məktəbin necə olmasını istərdiniz?" sualına"Mən orada müəllim olmaq istərdim, şagirdlərə xoşladıqları fənləri öyrənmələrinə imkan yaradardım. Marsdakı məktəbdə şagirdlərin xoşbəxt olması üçün fərqli məktəb, yaradıcı müəllim və yanaşmalardan ibarət mühit yaradardım".

Mey Mask olduqca enerjili olmasının, 73 yaşında belə işləməsinin, modelliklə məşğul olmağının səbəbini də açıqlayıb: "Mən həyatımdan, hər günümdən coşqu alıram, imkanlarıma uyğun olaraq üzərimə iş götürürəm və düzgün qidalanıram. Həyat sevgisi, eşqi ilə hər günümü yaşayıram. Hər günə yeni enerji və həyəcanla başlayıram. Təsəvvür edin ki, 73 yaşımda New Yorka köçəcəyəm, həyatımı yenidən başlayacağam".

### 8 guşəli yeni çağırışlar

Görüşün yekununda proqramın ənənəvi "Yeni çağırışları 8 guşəli ulduza bənzətsək, onun guşələri hansı çağırışlardan ibarət olar?" sualına qonaq belə cavab verib: "Siz yeni çağırışları, yəqin ki, qlobal miqyasda nəzərdə tutursunuz. Mən təmiz enerjini, kişi və qadınların hüquqlarının bərabər şəkildə təmin olunmasını, iqlim dəyişikliyini, insanların bir-birinə qarşı mehriban və nəcib olmasını, ailə dəyərlərini qeyd edərdim. Sadalanası o qədər dəyərlər var ki, səkkiz guşəli ulduza necə sığdıracağımı bilmirəm. Yaxşı niyyətlə görülən işin qədrini bil, nə qədər çox çalışsan bir o qədər şanslı olarsan, əsla təşəbbüsündən imtina etmə və indi başla".

Bir sözlə, "Bir qadın plan qurarsa" kitabında deyildiyi kimi: "Uğur da, uğursuzluq da bir seçimdir. Sadəcə bir plana ehtiyacımız var". Odur ki, gəlin elə bir plan quraq ki, seçimimiz hər zaman uğur olsun!

**Lamiyə ƏLİMƏRDANOVA**





# Təhsil üçün vaksinasiya

**Təhsil müəssisələrində çalışan pedaqoji və texniki heyətin “COVID-19” əleyhinə vaksinasiya prosesi paytaxtın ümumtəhsil məktəblərində yaradılmış 10 peyvənd məntəqəsində aparılır. Prosesi yaxından izləmək üçün Bakıdakı 158 nömrəli tam orta məktəbdə olduq. İdman zalında təşkil olunmuş vaksinasiya məntəqəsinə daxil olan müəllimlərin əvvəlcə bədən hərarətləri ölçülür və onlar şəxsiyyətini təsdiq edən sənədlə qeydiyyata alınır. Bundan sonra onların arterial təzyiqi yoxlanılır və hər hansı bir narahatçılığının olub-olmamağı barədə məlumat əldə edilir. Səhhətində heç bir problem aşkarlanmayan şəxs vaksin olunaraq 10-15 dəqiqə gözlədikdən sonra məntəqədən ayrılmasına icazə verilir. Peyvənd məntəqəsində olarkən vaksin olunan müəllimlərlə söhbət etdik. Onlar doğma sinif otaqlarında ənənəvi dərslərə qayıtmağın yeganə yolunu peyvəndlənmədə və gigiyenik qaydalara əməl etməkdə görürlər.**

## Paytaxt müəllimləri vaksinasiya prosesinə inamla qoşulurlar

*Bakıdakı 161 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi Züleyxa Abdullayeva:* “Vaksinasiya könüllülük prinsipi əsasında həyata keçirilir. Təhsil işçilərimizin vaksinasiya olunmasını ürəkdən arzu edirik. Bu, hər şeydən əvvəl sağlamlığımız üçün çox vacibdir. Eyni zamanda biz müəllimlər şagirdlərlə ünsiyyətdə oluruq. Qarşılıqlı ünsiyyət şəkilində xəstəlikdən qorunmaq üçün biz müəllimlərin vaksinasiya olunması vacibdir. Bunu düşünərək könüllü şəkildə peyvənd məntəqəsinə gələrək təhsil üçün vaksinasiya olundum”.

*Bakıdakı 161 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Şükufə Seyidova:* “Təhsil üçün vaksinasiya kampaniyasına mən də qoşuldum. Hal-hazırda özümü çox normal hiss edirəm. Bu gün ilkin dozanı qəbul etdim. İkinci doza üçün də həvəslə gələcəyəm. Gələcəyimiz üçün bunun əhəmiyyətli olduğunu düşünürəm. Biz müəllimlər vaksinasiya olunmalıyıq ki, şagirdləri və özümüzü bu xəstəlikdən uzaq edək. Əziz həmkarlarıma müraciət etmək istərdim ki, gəlin bu xəstəliyə yoluxmamaq üçün peyvənd olunaq”.

*Bakıdakı 197 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Şəlalə Səlimova:* “Dünyanın bəlasına çevrilən “COVID-19”-dan xilas olmağın yeganə yolu vaksinasiya və gigiyenik qaydalara əməl etməkdir. Şükürlər olsun ki, ölkəmizdə bununla bağlı qabaqlayıcı addımlar atıldı. Bu gün elə ölkələr var ki, onlar hələ də peyvənd ala bilməyiblər. Dövlətimizin gücü sayəsində biz vaksinlər vurdura bilirik. Fikrimcə, bu xəstəlikdən tezliklə xilas olmaq üçün peyvənd vurdurmalıyıq. Ağlıma gətirə bilməzdim ki, vaksin məntəqəsində bu qədər təhsil işçisi olar. Bu, çox sevindirici bir haldır. Gələcəyimiz və əvvəlki həyatımıza qayıtmaq üçün gəlin vaksin olunaq”.

*Bakıdakı 161 nömrəli tam orta məktəbin texniki işçisi Fərqanə Abdullayeva:* “Mən də iş yoldaşlarım kimi könüllü şəkildə vaksin vurdurmağa gəlmişəm. Təhsil işçiləri üçün burada çox yüksək səviyyədə şərait yaradılıb. Çox seviniriк ki, bu vaksinasiya vaxtında başladı. Hamımız istəyirik ki, ənənəvi təhsilə qayıdaq. Bunun da yeganə çıxış yolu qaydalara əməl etməklə yanaşı vaksin olunmaqdır”.

*13 nömrəli Uşaq Poliklinikasının həkimi Nərgiz Qurbanova:* “Müəllimlər arasında vaksinasiyaya gələnlər çoxdur. Hamısı könülü şəkildə vaksin olunurlar. Onları əvvəlcə mən qəbul edirəm. Burada qan təzyiqləri və bədən hərarətləri ölçülür. İlk vaxtlarda bir az həyəcanlı olurlar. O da 5-10 dəqiqə gözlədikdən sonra tam keçir. İndiyə kimi xoşagəlməz hallarla qarşılaşmamışıq. Peyvənd vurulan təhsil işçiləri arasında hər hansı bir səhhətində problem olanı görməmişik”.

**Rəşad ZİYADOV**

## Təhsil işçilərinin vaksinasiyası barədə məlumat

Ümumi təhsil müəssisələrində çalışan pedaqoji və texniki heyətin “COVID-19” əleyhinə vaksinasiya prosesi davam edir.

Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu və regionlar üzrə vaksinasiya olunmuş məktəb heyətinin ümumi sayı 70027 nəfər (31,48 faiz) təşkil edir. Ümumi sayın 16032 nəfəri (30,44 faiz) Bakının, 3561 nəfəri (60,50 faiz) Sumqayıtın, 2090 nəfəri Abşeronun (36,40 faiz), 48344 nəfəri isə (30,57 faiz) regionların payına düşür.

Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu və regionlar üzrə 50 yaşdan yuxarı vaksin olumuş məktəb heyətinin ümumi sayı isə 48 285 nəfərdir (55 faiz).

Bakı üzrə 50 yaşdan yuxarı vaksin olunmuş heyətin sayı 11868 nəfər (57 faiz), Sumqayıt üzrə 1807 nəfər (70 faiz), Abşeron rayonu üzrə 910 nəfər (64 faiz), regionlar üzrə isə 33700 nəfər (54 faiz) təşkil edir.

Qeyd edək ki, martın 3-dən “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq ümumi təhsil müəssisələrinin pedaqoji və texniki heyəti üçün vaksinasiya prosesinə başlanılıb. Pandemiya şəraitində normal tədris mühitinin davam etdirilməsi üçün təhsil işçilərinin vaksinasiya prosesində iştirakı zəruridir.

Təhsil Nazirliyi olaraq təhsil işçilərini #TəhsilÜçünVaksinasiya devizi altında birləşərək vaksin olunmağa və ənənəvi təhsilin bərpasına öz töhfələrini verməyə çağırırıq.





# Vaksinasiya həm də təhsil məsələsidir

## #TəhsilÜçünVaksinasiya həştəq kampaniyası

**Təhsil işçilərinin "COVID-19" əleyhinə vaksinasiyaya daha aktiv qoşulması üçün #TəhsilÜçünVaksinasiya həştəq kampaniyasına start verilib.**

**Hörmətli təhsil işçiləri, vaksin olunmağınıza dair şəxsi sosial hesabınız üzərindən qeyd edilən həştəqi əlavə etməklə foto və ya mətn paylaşaraq kampaniyada aktiv iştirak edə bilərsiniz.**

**Bu gün #Vaksinasiya həm də təhsil məsələsidir.**



# Azərbaycan ICILS 2023-də iştirak edəcək



**Toğrul İBRAHİMOV,**

*Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin aparıcı məsləhətçisi*

## ICILS - Kompüter və İnformasiya Savadlılığı üzrə beynəlxalq qiymətləndirmə tədqiqatı

### ICILS nədir?

ICILS 8-ci sinif şagirdlərinin kompüter və informasiya savadlılığı üzrə beynəlxalq qiymətləndirmə tədqiqatıdır. İlk dəfə 2013-cü ildə Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IEA) tərəfindən aparılmışdır. 5 ildən bir keçirilən qiymətləndirmə tədqiqatı ikinci dəfə 2018-ci ildə baş tutub. 2023-cü ildə isə tədqiqatın növbəti dəfə həyata keçiriləcəyi planlaşdırılıb və ölkəmizin də həmin tədqiqatda iştirak etməsi nəzərdə tutulub.

### ICILS nəyi ölçür?

ICILS 2 meyar əsasında informasiya və kommunikasiya texnologiyaları bacarıqlarını qiymətləndirir. İlk meyar kompüter və informasiya savadlılığıdır (computer and information literacy (CİL)). Bu meyar əsasında kompüterin xüsusiyyətlərinin istifadəsi, məlumatların toplanması, toplanılan məlumatlar əsasında rəqəmsal məhsulun istehsal edilməsi və rəqəmsal kommunikasiya bacarıqları qiymətləndirilir.Kompüter və informasiya savadlılığı meyarı evdə, məktəbdə, iş yerində və digər sahələrdə araşdırma aparmaq, istehsal etmək və kommunikasiya qurmaq məqsədi ilə kompüterdən fərdi istifadə bacarıqlarını qiymətləndirmək üçün müəyyən edilib.

İkinci meyar isə şagirdlərin hesablama düşüncəsinin (computational thinking (CT)) ölçülməsinə, yəni, problemlərin konseptuallaşdırılmasına və həlli əməliyyatlarının icrasına yönəlmişdir.

İlk dəfə 2018-ci ilin ICILS tədqiqatında ölçülən hesablama düşüncəsi (CT), kompüterlə real dünyadakı problemlərin fərqli cəhətlərini ayırd etmək, hesablama formullarını təkmilləşdirmək və alqoritmik həlləri inkişaf etdirmək bacarıqlarının qiymətləndirilməsi üçün müəyyənləşdirilib *(bax şəkil 1)*.

Hesablama düşüncə meyarı proqramlaşdırma ilə məşğul olarkən və ya rəqəmsal cihaz üçün tətbiq hazırlayarkən istifadə olunan yanaşmaya uyğun dizayn edilib. Bu meyarın üstünlükləri qeyd olunanlardan daha çoxdur. Hesablama düşüncəsinin təməlində dayanan düşünmə strategiyaları mürəkkəb ideyaları anlamağa və problemləri həll etməyə kömək edir *(bax şəkil 2)*.

### ICILS tədqiqatının yaratdığı üstünlüklər

ICILS tədqiqatı vasitəsilə hesablama düşüncəsinin qiymətləndirilməsi şagirdlərin məktəbdə kompüterlərlə problemi həll etmə bacarıqlarını necə inkişaf etdirdikləri barədə məlumatlar toplamaq və beynəlxalq səviyyəli müqayisələr aparmaq üçün bir fürsətdir.

ICILS qiymətləndirmə tədqiqatında da digər beynəlxalq tədqiqatlarda olduğu kimi müəllimlər və şagirdlərdən sorğu anketləri vasitəsilə müəyyən məlumatlar toplanır.

Şagirdlər İKT avadanlıqlarının əlçatanlığı, evdə və məktəbdə İKT-dən istifadə və s. müəllimlər isə tədrisdə İKT-dən istifadə ilə bağlı yanaşmalar və bu sahədə peşəkar inkişafa dair sorğu anketlərini doldururlar.

Eyni zamanda, təhsil müəssisələrindəki İKT koordinatorları məktəbdə İKT avadanlıqları və öyrənmə prosesinə dəstək vermək üçün onlardan necə istifadə edildiyi barədə sorğu anketini doldururlar. Əlavə olaraq, direktorlar da məktəbdə İKT-nin tətbiqinin genişləndirilməsi üçün prioritetlər haqqında məlumatların toplanmasına imkan verən sorğu anketini cavablandırırlar.

Beləliklə, iştirakçı ölkələr milli səviyyədə İKT-yə dair kurikulum, resurslar, tədris proqramları, həmçinin kompüter və informasiya savadlılığının inkişafı ilə əlaqəli məlumatları bölüşürlər.

### 2018-ci ilin ICILS nəticələri

2018-ci ildə keçirilmiş ICILS beynəlxalq tədqiqatında Almaniya, Danimarka, İtaliya, Qazaxıstan, Koreya, Lüksemburq, Rusiya, Uruqvay, ABŞ, Finlandiya, Fransa və Çili iştirak edib. Nəticələr göstərir ki, tədqiqatda iştirak edən şagirdlərin 18%-i kompüter və informasiya savadlılığı (computer and information literacy (CİL)) meyarının şkalasının ən aşağı səviyyəsinə belə çata bilməyib. Ümumilikdə, şagirdlərin 25%-i qeyd olunan meyar üzrə ən aşağı nəticəni əldə edib.Şagirdlərin 21%-i isə CIL meyarı üzrə iki dəfə daha yüksək səviyyəyə çataraq kompüterlərdən məlumat toplama və idarəetmə vasitəsi kimi istifadəyə dair müstəqil işləmək bacarığına sahib olduğunu göstərib. Tədqiqatda iştirak edən şagirdlərin yalnız 2%-i CIL meyarı üzrə ən yüksək nəticəyə nail olub.

Maraqlı məqamlardan biri kimi deyə bilərik ki, kompüter və informasiya savadlılığı üzrə fərqlər ölkələr arasındakı fərqlərdən daha çoxdur. Çünki kompüter və informasiya savadlılığı üzrə ən yüksək və ən aşağı nəticələr bir-birindən 157 bal qədər fərqlənir. Ölkələr arasında şagirdlərin ən yuxarı və ən aşağı nəticə əldə edənlərinin 5%-nin orta qiyməti 216 (Danimarka) və 347 bal (Qazaxıstan) intervalında dəyişir.

Kompüter və İnformasiya Savadlılığı Beynəlxalq Tədqiqatının (ICILS) 2018-ci ilin nəticələri dünya üzrə bu sahədə vəziyyəti və ölkələrin gələcək inkişafının səviyyəsinə dair maraqlı məqamları üzə çıxarır. Dünyanın 12 ölkəsində 46 mindən çox şagird və 26 min müəllimi əhatə edən tədqiqatın nəticələrinə görə, Danimarka məktəbliləri 557 balla kompüter və informasiya savadlılığı üzrə dünyada birincidir. Rusiya məktəbliləri 549 balla ikinci, Koreya Respublikasının şagirdləri 542 balla 3-cü sıralardadır.

### Azərbaycan şagirdlərinin bacarıqları ICILS 2023-də qiymətləndiriləcək

Məlum olduğu kimi, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli, 2469 nömrəli Sərəncamına əsasən, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritet reallaşdırılmalıdır. Həmin Milli Prioritetdən biri Rəqabətli İnsan Kapitalı və Müasir İnnovasiyalar Məkanı adlanır. Qeyd olunan prioritet əsasında XXI əsrin tələblərinə uyğun təhsil tələbi növbəti 10 ildə qarşımızda əsas məqsəd kimi müəyyənləşdirilib. Belə ki, Azərbaycanın beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunması haqqında müddəa da həmin məqsədlərdən biri kimi təyin edilib. Bu baxımdan Azərbaycan 2023-cü ildə növbəti ICILS 2023 beynəlxalq qiymətləndirmə tədqiqatında iştirak edəcək. Həmin ildə ölkəmizdə ümumi orta təhsil səviyyəsinin 8-ci sinfində təhsil alacaq şagirdlərimiz kompüter və informasiya savadlılığı üzrə fərdi bacarıqlarını nümayiş etdirərək, ümumi vəziyyətə dair mənzərənin formalaşmasına və digər ölkələrlə bu sahədə mövcud fərqlərin ayırd edilməsinə şərait yaradacaqlar.

Tədqiqat eyni zamanda informatika fənni üzrə kurikulumun dövrün tələblərinə uyğun olub-olmadığı haqqında da müqayisəli məlumatlara sahib olmağa imkan verəcək. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” sənədinə əsasən, ümumi təhsil pilləsində təhsilalanlarda təfəkkürlə (yaradıcılıq, tənqidi təfəkkür, problem həlletmə, qərar qəbuletmə, müstəqil öyrənmə) və fəaliyyətlə (ünsiyyət, əməkdaşlıq, rəqəmsal savadlılıq, informasiya savadlılığı, maliyyə savadlılığı) bağlı səriştələr müəyyənləşdirilib. Ümumi orta təhsil səviyyəsinin 8-ci sinfinə aid informatika fənninə dair məzmun standartlarının ümumi təlim nəticələrinə nəzər salsaq, 8-ci sinif şagirdləri aşağıdakı bilik və bacarıqlar üzrə qabiliyyətlərə sahib olmalıdırlar.

1. *informasiyanı toplayıb, emal etməli və məqsədyönlü istifadə etməli;*
2. *standart riyazi alqoritmləri tətbiq etməli, həyati məsələlərin alqoritmik həllini təqdim etməli;*
3. *proqramlaşdırma dillərindən istifadə etməli;*
4. *internet xidmətlərindən (servislərindən) istifadə etməli.*

Göründüyü kimi, ölkəmizdə 8-ci sinifdə təhsilalan şagirdlər nəzərdə tutulmuş dövlət standartlarına əsasən, ICILS beynəlxalq qiymətləndirmə tədqiqatında ölçülən meyarlara uyğun bacarıqlara sahib ola bilərlər. Ümid edirik ki, 2023-cü ildə keçiriləcək tədqiqatda ölkəmiz əhəmiyyətli yerlərdən birinə sahib olacaq. Unutmamalıyıq ki, bu qiymətləndirmə yarış deyil, tədqiqat xarakteri daşıyır. Məqsəd şagirdlərin təlim göstəriciləri əsasında ümumi təhsilin mövcud vəziyyəti barədə təsəvvür əldə etmək, problemləri aşkara çıxarıb həlli yollarını müəyyənləşdirmək, müxtəlif ölkələrlə müqayisələr aparıb inkişaf perspektivlərini proqnozlaşdırmaq, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini öyrənməkdir. Tədqiqatda iştirak edəcək şagirdlərimizə uğurlar diləyirik.

Şəkil 1.




*Tapşırıq sadə alqoritmik qaydalara əməl edərək alqoritmlərin tətbiqə adaptasiya olunmasını və vizuallaşdırılmasını tələb edir.*

Şəkil 2.




*Tapşırıq simulyasiya alətini konfiqurasiya edərək, dronu hərəkətə gətirməyi və onun balqabaqlar arasında optimal uçuş istiqamətini müəyyənləşdirməyi tələb edir.*



Nizami Gəncəvi – 880

# "İskəndərnamə"də müharibə və sülh məsələləri

**Bütün yaradıcılığı boyu insanlığa bəşəri və humanist çağırışlar edən Nizami Gəncəvi "Xəmsə"yə daxil olan poemalarında müharibə və sülh haqqında fikirlərə də geniş yer vermişdir. Belə fikirlərə poemaların hamısında rast gəlmək olar. Lakin şairin sonuncu əsəri olan "İskəndərnamə"də bu mövzu bütün əhatəliliyi ilə qeyd edilib. Poemanı oxuduqca Nizaminin müharibə və sülhə, ordu quruculuğuna, ordunun döyüş ruhunun yüksəldilməsinə, işğal olunmuş ərazilərə, siyasi rəqiblərə münasibətə və s. məsələlərə dair bu gün də aktuallığını qoruyub saxlayan fikirləri ilə tanış oluruq.**

Əsərin tədrisi zamanı şagirdləri araşdırmaya yönəltməyi vacib hesab edirəm

Xüsusilə indiki mərhələdə-ordumuzun zəfər çaldığı 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə böyüməkdə olan nəslin vətənpərvərlik və döyüşkənlik ruhunun qaldırılmasında həmin fikirlərin böyük əhəmiyyəti vardır. Bunları nəzərə alaraq "İskəndərnamə" əsərinin tədrisi zamanı şagirdləri mövzunun həmin istiqamətlərdən araşdırılmasına yönəltməyi vacib hesab edirəm. Təcrübə göstərir ki, poemanın məzmunu üzərində işləyərkən şagirdlər humanist şairin dəyərli fikir və mülahizələrini fərqləndirməyi bacarırlar. Bir fasilitator-müəllim kimi özüm də şagirdləri ayrı-ayrı konkret faktlara istiqamətləndirir, onların axtarışlarını ümumiləşdirirəm. Bu yazıda "İskəndərnamə"dən seçdiyim nümunələrə istinad etməklə şairin müharibə və sülh haqqında düşüncələrinin ümumi təsvirini verməyə, fikirlərimi oxucularla bölüşməyə çalışacağam.

"Şərəfnamə"də şair yazır ki, İskəndər tutduğu yerləri dağıtmır, əksinə öz qurucu, yaradıcı zəkası ilə həmin yerlərə əbədiyyətə qədər qalan abadlıq gətirir.O, böyük şəhərlər bina etdirir, qalalar, sədlər tikdirir. "Dastanın xülasəsi və İskəndərin cahangirlik tarixi" fəslindən öyrənirik ki, Həri, Dərbəndi, Bulqar şəhərini İskəndər bərqərar etdirmiş, uca dağları bir-birinə bağlayan "Yəcuc hasarı"nı da o çəkdirmişdir:

*Hinddən başlayaraq Yunana qədər*
*Hər yerdə tikdirdi böyük şəhərlər.*
*Səmərqənd şəhrinə o verdi zivər,*
*Çəndi də tikdirmiş böyük İskəndər.*

Nizaminin təsvirində İskəndər "atını çapdığı" yerləri şənləndirir, onun ayağı dəyən həmin yerlər səadət tapır. Misir xalqını zəncilərin zülmündən azad etdikdən sonra zəncilər üzərində qələbə çalan hökmdar Misirdə İskəndəriyyə şəhərini tikdirir.

Əsərin təhlili zamanı bu epizodlarla bağlı fikirləri çatdırarkən Ağdamda, Füzulidə, Zəngilanda - Qarabağın işğalı dövründə ermənilərin şəhər və kəndlərimizi xarabalığa çevirdiklərinə, dünyada misli-bərabəri olmayan "vəhşi qəbilə" vandallığına şagirdlərin diqqətini cəlb edirəm.

Nizami tarixin dərslərinə əsaslanaraq belə bir fikir irəli sürür ki, dünya kin və savaşlarla, sülh və barışlarla sınanmış, sülhdən xeyir görmüş, kindən isə daim ziyan çəkmişdir. İran hökmdarı Daraya xərac verməmək barədə özlüyündə qərar qəbul edən İskəndər öz sərkərdələrini bir yerə yığır, onların da rəyini öyrənmək istəyir. Şair qəhrəmanının dili ilə sərkərdələrini sınağa çəkərək belə bir dilemma qarşısında qoyur:

*"Sülhmü, ya savaşmı çox fayda verər?"*

Müdrik sərkərdələr Daranın İskəndərə qarşı dayana bilməyəcəyini əsaslandıran fikirlər irəli sürürlər. "Sənin bir neçə üstünlüyün var: Dara zalım hökmdar kimi öz ordusu tərəfindən sevilmir. O, bir kin bəsləyər, sən din bəslərsən"; "Elə bir düşməndən niyə qorxursan, evinin içi də özünə düşməndir"; "Zəncilər üzərində qələbə çalmaqla sən çox uğurlusan. Üstəlik, tale, bəxt sənin tərəfindədir - həndəsi naxışlar bunu təsdiqləyir"; "Bu çarpışma gec-tez olacaq, ancaq sən birinci hücum etmə, ordunu döyüşə hazırla" və s. kimi fikirlər onu qələbəyə daha da ruhlandırır. Lakin o tələsmir, müdrik və tədbirli bir hökmdar nümunəsi göstərir. Nəticədə, Daranın 90 minlik ordusu üzərində parlaq qələbə qazanır.

"İskəndərnamə"də şairin ordu quruculuğu, əsgərlərin döyüş ruhunun yüksəldilməsi haqqındakı fikirləri çox maraqlıdır. Bu düşüncələr müasir ordu quruculuğunda və döyüşdə bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Həmin fikirlərdən bəzilərini tezislər şəklində belə ifadə etmək olar:

- Orduda birlik olmalıdır (ermənilərə qarşı son savaşda Azərbaycan xalqının misilsiz birliyi qələbəmizin əsas səbəblərindən biri deyilmi? - X.Ə).

- Ordunun silahlanmasına, təchizatına, döyüş texnikasına, döyüşçülərə xüsusi diqqət yetirir. Elə bir ordu qurur ki, "Sanki muma möhürlə naxış vurur".

- Orduda qorxu hissi olmamalıdır. Əsgərə qorxu üz versə, cəza fayda verməz, ordu dağılar. Düşmən qarşısında can qorxusu olmamalı, heç kəs canının hayında qalmamalıdır (Zəncilərlə müharibə zamanı İskəndərin elçisi Tutiyanuş Zəncilərin şahı tərəfindən öldürülür. Həmin hadisə İskəndərin qoşununa psixoloji cəhətdən mənfi təsir edir. Lakin İskəndər Ərəstunun məsləhəti ilə həmin vəziyyətdən ordusunu xilas etməyi bacarır).

- "Hərbə girərkən utanmaq nə gərək? Utanmaq igidi hünərdən qoyar".

- "Döyüş meydanında ədalət güclünün tərəfindədir. Lakin döyüş ədalətli olmalıdır: Adil padşahdan zülm baş verməz".

- "Acizlərə dövran mehriban olsa, qarışqa aslana meydan oxuyar".

- "Qaniçən zülmkar düşmən qarşısında nəzakət göstərsən, bunu sənin acizliyin sayar".

- "Haqsızlıq haqq ilə düşmən olubsa, Haqq yerini tutanda haqsızlıq peşman olacaq".

- "Qarşında düşmən kin ilə coşarsa, sənin də qəlbində qan cuşə gəlməlidir".

- "Ordu səbir etməkdən cana doymuşdur, qana susamış aslan kimi zəncirini çeynəyir. Həmin anı dəyərləndir".

- "Qalib gəlmək sayıqlıqdan çox asılıdır, dövranın hər işinə qarşı sayıq olmaq igidin başını ucaldar".

Yuxarıdakı fikirləri İskəndərin döyüş kodeksi də adlandırmaq olar. Döyüş meydanında adlı-sanlı pəhləvanlarını itirdikdən sonra Zəngibar şahı ilə açıq döyüşə girən İskəndər onu meydanda həlak edir. Şair həmin döyüşü mübaliğəli şəkildə belə təsvir edir:

*"Qılıncın, qalxanın şaqqıltısından,*
*Aya baş vururdu buxarla duman".*

Nizami poemada bir neçə yerdə döyüş səhnələrini çox geniş təsvir etmişdir. Qalib gəldikdən sonra İskəndər döyüş meydanını gəzir. Qətlə yetirilmiş "bir dünya meyit"ə ibrətlə baxır, qələbədən üzü gülsə də, qəlbindən qara qanlar axır...

Təhlil zamanı həmin səhnələrdən bəhs edərkən Vətən müharibəsində şəhid olmuş minlərlə həmvətənimizi hörmətlə anır, hər iki tərəfdən itkilərin baisi kimi erməniləri lənətləyirik.

Əsərdə ruslarla döyüş səhnələri çox geniş təsvir olunur. Ruslar yüz min əsir verir, çox sayda itkilərdən sonra təslim olur. İskəndər rus sərkərdəsi Qıntalı öldürmür, onu öz taxtında oturtdurur, vergi verməsini tələb edir.

Əsərdə sülhün təbliği, savaşdan qaçmağın mümkünlüyü barədə fikirlər də geniş yer tutur. Poemanı çapa hazırlayan tədqiqatçılar haqlı olaraq Nizami mövqeyində dayanıb müharibələri "insan cəmiyyəti üçün fəlakət" sayırlar. Əsərdə şairin humanist təbiəti və dünyagörüşü sülhü, insanlığın xilasını, tərəqqini tərənnüm edir. İskəndərin xarakterində sülhsevərliyin hücuma nisbətən daha üstün keyfiyyət olduğuna şahid oluruq. Zəngibar şahla döyüşdən əvvəl elçisini barış üçün göndərir. Elçi zəncilərin şahına:

*Kin ilə, sülh ilə sınanmış cahan,*
*Sülhündən xeyr almış, kinindən ziyan,*

- deyərək onu savaşdan çəkindirməyə çalışır. Savaşdan çəkinməyən hökmdarın aqibəti isə çox acınacaqlı olur.

İran şahı Daranın İskəndərlə savaşa başlamasını təsvir edərkən orduda sülh istəyinin güclü olduğuna diqqəti cəlb edir:

*Hamı düşünürdü, bəlkə, sülh olsun,*
*Qılınclar qınında sakit otursun.*

Sülh istəyi, ölkəsini dağıdıcı müharibədən azad etməyə yönəlmiş siyasət Hindistan şahı Keydlə, Çin xaqanı və Bərdə hökmdarı Nüşabə ilə görüşlərdə və həmin ölkələrə yürüşlərdə geniş təsvir olunur. Hökmdarlar İskəndərlə dostluq münasibətləri yaratmaq üçün ağıllı tədbirlər görür və təkliflər irəli sürürlər. İskəndər də savaş və yürüşləri dostluq münasibətlərinə çevirir. Beləliklə, Hindistan və Çin kimi Azərbaycan da İskəndərin qoşunlarının tapdağından xilas olur. Bu məsələlərə şagirdlərin diqqətini cəlb etdikdən sonra onları Nizami təxəyyülünün qəhrəmanı olan Nüşabənin dövrü, Bərdənin qədim dövr tarixi haqqında əlavə mənbələri də araşdırmağa yönəldirəm.

**Xeyransa ƏLİYEVA,**
*Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi, Azərbaycan Milli EA-nın doktorantı*

---

# Nizami yaradıcılığında ədalət prinsipi

**Ensiklopedik biliyə malik olan Nizami Gəncəvi əsərlərində bir çox bəşəri ideyaları təbliğ etmişdir. Şair öz yaradıcılığı ilə dünya ədəbiyyatında yeni dövr açmış, Şərq xalqlarının bədii, estetik, əxlaqi və fəlsəfi təfəkkür tərzini geniş işıqlandırmışdır. Bu bəşəri ideyalardan ədalət prinsipi və ədalətli hökmdar məsələsi Nizamini ömrü boyu düşündürmüş və şair, demək olar ki, beş poemanın hamısında bu məsələyə dönə-dönə qayıtmışdır.**

Fikrimizi əsaslandırmaq üçün "Xəmsə"yə daxil olan poemalara ardıcıl şəkildə müraciət edək.

"Sirlər Xəzinəsi" poemasının "Ədalətli və insaflı" olmaq haqqında şaha nəsihət" hissəsində oxuyuruq:

*Məsləhətə möhtacdır ədalət hər bir zaman,*
*Xalqa zülmün amansız cəzasından dad, aman.*

*Can yandırsan orduna, məmləkətə, yurduna,*
*Arxalana bilərsən öz xalqına, orduna.*

*Zülmkarlıq dağıdar, bərbad edər ölkəni,*
*Ədalət səadətlə abad edər ölkəni.*

Göründüyü kimi, şair hökmdarları ədalətli olmaqdan ötrü ağıllı adamlarla məsləhətləşməyə, xalqdan və ordudan heç nəyi əsirgəməməyə çağırır. Əgər xalqa və orduya can yandırsan, onlar sənin yolunda ölümə gedərlər. Ölkəni yalnız ədalət abad edə bilər.

Nizami hökmdarları İsa kimi insaflı və mürvətli olmağa çağırır. Şairin fikrincə, dünyaya zülmlə yox, ədalətlə hökmdarlıq etmək və səadətə yetişmək olar.

Nizami başqalarının dili ilə hökmdarlara ibrət dərsi verir. "Nuşirəvanla vəziri və bayquşların söhbəti" hekayəsində bayquşlardan biri o biri bayquşdan qızına neçə xaraba kənd cehiz verəcəyini soruşduqda ikinci bayquş belə cavab verir:

*Elçi gələn quş deyir: "Şərikəm hər sözünə,*
*Şahın zülmkarlığı bəllidir yer üzünə.*

*Qanlar tökən görürəm şahı gündə yenə mən.*
*Yüz min belə xaraba kənd verərəm sənə mən".*

*Bu sözlər ataş kimi yandırdı, yaxdı şahı,*
*Elə fəğan qopardı, göylərə qalxdı ahı.*

*Ağladı, ikiəlli qapaz saldı başına,*
*Nahaq qanlar zalımı qərq edər göz yaşına.*

Şah bu sözlərdən sonra özündən əvvəlki şahların dünyadan əliboş getirdiklərini xatırlayaraq şivən qoparır və ədalətsizliyin daşını ataraq adil Nuşirəvan kimi yadlarda qalır.

"Dünyanın keşməkeşi və bəşərin iztirabları" hekayəsində Nizami Süleymanın bu dünyadan əliboş getməsini xatırladaraq yazır:

*Süleymanın mülkünü sorma hər an hardadır?*
*Mülkü öz yerindədir, de, Süleyman hardadır?*

Nizamiyə görə, bu gün səhrə ayaqaltda olan toz-torpaq ki, var, ondan kərpic kəsirlər, kirəmit bişirirlər, qab-qacaq düzəldirlər bir zamanlar hökmdarların bədəni olub, torpağa dönüb.

Ədalətdən danışarkən Nizaminin "Qarı və Sultan Səncər" mənzum hekayəsini xatırlamamaq insafsızlıq olardı.

Bu hekayədə zalım darğadan şikayət edən qarı görün ədalətin ölkə və insanlar üçün nə qədər zəruri olduğunu Sultan Səncərə necə bildirir.

Qarının fikrincə, ölkədə vətəndaşın haqqının tapdalanması hökmdarın ədalətinin tapdalanması ilə eyni şeydir.

*Əyyaşlıqla soyurlar el varını darğalar.*
*Divana da çəkirlər bir qarını darğalar.*

*Bu zülmə, haqsızlığa dözmək çətindir, çətin,*
*Mənim abrım tapdanır, səninsə ədalətin.*

*Bu yaralı sinəmdə əzilməmiş yer hanı?*
*Ruhum uçub bədəndən, tapşırıram bu canı.*

*Sən dadıma çatmasan, şah demərəm adına,*
*Qiyamətin günündə çatmasınlar dadına.*

*Hər elin hökmdarı el dərdinə qalandı,*
*Zülmün hara çatıb ki, var-yoxumuz talandı...*

*Şah elin hər işini nizama salsın gərək,*
*Həmişə öz xalqının qeydinə qalsın gərək.*

Nizami özünün ikinci poeması "Xosrov və Şirin"də ədalətli hökmdar məsələsini Hürmüzün və Şirinin simasında daha qabarıq vermişdir. Şair poemanın əvvəlində Hürmüzü xalqın qeydinə qalan, insanlara zülm edənləri, hətta doğma oğlu olsa belə, cəzalandıran bir şah kimi təqdim edir:

*Zaval gələn zaman Kəsra bəxtinə,*
*Hürmüz sahib oldu şahlıq təxtinə.*

*O, tez məşhur oldu ədalətiylə,*
*Dolaşırdı adı hey dildən-dilə...*

*Dedi: "Carçı, çağır! Eşitsin aləm,*
*Hər kim zülm eləsə, görəcək sitəm".*

Nizami poemanın başqa bir yerində kəndlinin sahəsini xaraba qoyan oğlu Xosrovu cəzalandıran Hürmüz haqda belə yazır:

*Doğma bir övlada əvvəl nə sayaq*
*ədalətlə cəza verilirdi, bax!*

*Hanı o ədalət, o insaf hanı?!*
*Verə öz oğluna belə cəzanı.*

*İndi yüz yoxsulun tökülsə qanı,*
*Nahaq qan tökənə bir cəza hanı?*

Nizaminin Məhinbanunun yerinə taxta çıxan Şirini bir hökmdar kimi təqdimatı çox maraqlıdır. Şirin taxta çıxan kimi haqq və ədalət yerini tapır, insanlar zülm və özbaşınalıqdan qurtulur, yoxsullar vergidən azad edilir.

*Şirinin əlinə çatanda şahlıq*
*Ölkədən hər yana yayıldı işıq.*

*Ədalətlə etdi rəiyyəti şad,*
*Məhbuslar olundu həbsdən azad.*

*Şəhər qapısından bir bac almadı,*
*Heç bir əkinçidən xərac almadı.*

*Zülmdən qurtardı bütün məzlumlar,*
*Dünyada zülmdən qalmadı asar.*

Nizami "Leyli və Məcnun" poemasında haqsız olaraq heç bir günahı olmayan gənci itlərə atdıran şahın ədalətsizliyini elə həmin gəncin dili ilə açır:

*"Sən məni itlərə atdınsa əgər,*
*Yaxşı ki, dost yeyən deyilmiş itlər.*

*Dostluğu səndə yox, itdə gördüm mən,*
*İt bilən hörməti ayaqladın sən...*

*İt sənə dost olar, bir sümük atsan,*
*Namərd qədir bilməz, olsan da qurban".*

"Yeddi gözəl" poemasında da Nizami yenə ədalət məsələsinə toxunmuşdur. Heç bir günahı olmayan Simnarın həyatına qəsd edən Neman şah buna sübutdur. Yenə həmin poemada Nizami Bəhram şahın ədalətli olmasını və xalqa zülm edənləri cəzaladırdığını belə təsvir edir:

*İnsafı gətirdi o bizim yerə,*
*Qalxdı ədalətin başı göylərə.*

*Dəydi insaflıya köməyi hər an,*
*Zülmkar olana verməzdi aman.*

Poemanın başqa yerində quraqlıq illərində Bəhram şahın xəzinəni və anbarları açaraq xalqın ərzaq sarıdan korluq çəkməsinə imkan verməməsini belə təsvir edir:

*Dünya bu qıtlıqdan bezikdi gərçək,*
*Gövhər qiymətinə satıldı çörək...*

*Dənin qiymətindən olunca agah,*
*Anbarı açmağa fərman verdi şah.*

Yaradıcılığının yekunu kimi Nizami "İskəndərnamə" poemasında bir sıra bəşəri ideyalarla yanaşı, ədalət haqqında fikirlərini də ümumiləşdirmişdir.

**Elşad NƏSİROV,**
*Masallı rayonu, Qüdrət Babayev adına Mahmudavar kənd ümumi orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi*



**Valideynlərimin söylədiklərinə görə mən lap kiçik yaşlarımdan təbiət mənzərələrini çəkməyə meyl göstərmişəm. Ağac, dağ, çay, müxtəlif heyvan rəsmələri çəkir, sonra da hirslənərək cırıb atırmışam. Səbəb də bu olurmuş ki, çəkdiyim rəsmləri hamı bəyənsə də, özüm bəyənmirmişəm. İllər ötdü və mən böyüyüb 1-ci sinfə getdim.Yenə də boş vaxtım yaranan kimi çantamdakı rəngli karandaşları stolun üstünə tökərək əvvəlki qayda-da rəsmlər çəkməyə başlayırdım. Anam həmişə saçlarıma sığal çəkərək, - mənim rəssam balam nə gözəl rəsm çəkib, - deyərdi. Əvvəllər əyləncə saydığım rəsm sənətinə marağımın getdikcə daha çox artdığını hiss edən valideynlərim məni 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinə aparmağa qərar verdilər. Çəkdiyim rəsmlər Mərkəzin müəllimləri tərəfindən bəyənildi və sonra qazandığım bütün uğurların əzəli də elə onda qoyuldu...**

# "Nailiyyətlərim mənə sevinc hissləri yaşadır"

## On iki yaşlı rəssamın uğur hekayəsi

...Artıq 12 yaşı olan yeniyetmə rəsm həvəskarı Məryəm Atlıxanova bu yaradıcılıq sahəsinə bağlılığının qısa tarixçəsini nəql etdikcə adları tarixin yaddaşına sənət fatehləri kimi həkk olunan tanınmış klassiklərin tərcümeyi-halları yaddaşımda təzələnirdi. Bir anlıq elə düşündüm ki, hazırda mənimlə həmsöhbət olan bu istedadlı yeniyetmə gələcəkdə tanınmış peşə sahiblərindən biri olacaq və bu gün haqqında qələmə alacağım yazı da onun şəxsi arxivində ən qiymətli xatirə kimi saxlanılacaq. Nə isə, gəlin, artıq beş ildir ki, üzvü olduğu Mərkəzdə dekorativ-tətbiqi sənət dərnəyində qazandığı uğurları barədə həmsöhbətimin hədsiz sevinc hissi ilə söylədiklərini dinləməkdə davam edək.

### Sənətkarı ancaq əsərləri sevdirə bilər

Bu sənətin sirlərini rəsm müəllimim Aytən Bəylərzadə həvəslə mənə mənimsədib. Rəssamlıq da başqa sahələr kimi nə qədər fitri istedad, yaradıcılıq qabiliyyəti tələb edən bir sahə olsa da onun dərin sirlərinə müəllimsiz heç vaxt yiyələnmək mümkün ola bilməz. Müəllim ilk növbədə, şagirdə istiqamət verir, rəssamlıq sənətinin fəlsəfəsini mənimsədir, bizi onun mahir bilicisi olmağa ruhlandırır. Mən deyərdim ki, rəssamlıq yaradıcılıq sahəsi olmaqla bərabər, həm də bir elmdir, özü də riyaziyyat qədər dəqiqlik sevən çətin bir elm. Əgər qələmə alınan bir rəsm əsəri tamaşaçını düşünməyə vadar etməsə, onu əsər adlandırmaq olmaz. Adi bir ağ vərəqdə qələmə alınan hər hansı rəsm nümunəsinə gərəkdir ki, can verəsən, həyat verəsən və o, özü haqda öz dilində tamaşaçıyla ünsiyyət qura bilsin. Sənətkarı yaşadan, onu sevdirən, məşhur edən də elə onun əsərlərindəki bu kimi vacib keyfiyyətlər ola bilər.

...Açığı Məryəm danışdıqca mən bir şagirdlə deyil, sanki bu sənətin ağır yükünü ürəyində daşımağı bacaran bir sənətkarla həmsöhbət olduğumu zənn edirdim və qəribə hisslər də keçirirdim. -Doğrudanmı yaradıcı adamlar lap elə uşaq və yeniyetmə yaşlarından qeyri-adilikləri ilə başqalarından hiss olunan qədər fərqlənirlər?-deyə, düşünürdüm. Qəribə olsa da o, danışdıqca mənim arabir qeyri-ixtiyari xəyal aləminə baş vurduğum da heç diqqətindən yayınmırdı, olduqca həssas və diqqətcil qız idi.

### "Biz birlikdə güclüyük"

- Müxtəlif vaxtlarda rəsm müsabiqələrində dəfələrlə iştirak etmişəm və çox uğurlara da imza atmışam, - deyərək, Məryəm söhbətinə davam edir. Mərkəzdə təşkil olunan "Mənim nağıl dünyam", "Sehrli nöqtələr", "Təbiətimizi qoruyaq" adlı rəsm sərgilərində fərqləndiyimə görə diplomlarla mükafatlandırılmışam. "Biz birlikdə güclüyük", "Qızıl hərflərlə yazılan tarix", "Qayıdış", "Qarabağ abidələri" adlı respublika onlayn müsabiqələrində I yerə layiq görülmüşəm.

### "Odlar yurdu Azərbaycan"

Moskva şəhərində keçirilən "Dialoq" beynəlxalq uşaq rəsmləri müsabiqəsində fəal iştirak edərək qaliblər sırasında olmuşam. "Odlar yurdu Azərbaycan" mövzusuna həsr olunmuş müsabiqədə isə "İçərişəhər" adlı rəsm əsərimlə laureat adını qazandım və diplomla mükafatlandırıldım. "Dostluğun sehri" II beynəlxalq uşaq rəsm müsabiqəsinə qatılaraq birincilik qazandım. Sevinirəm ki, Müzəffər Ordumuz tərəfindən Qarabağın işğaldan azad olunmasına həsr olunan bir çox sərgilərdə əsərləri fərqlənən iştirakçılardan biri də mən olmuşam. Bu, mənim üçün həm də qürurverici bir hal idi. Bizə doğmadan- doğma olan musiqi beşiyimiz, iftixar mənbəyimiz olan Şuşamıza həsr olunan "Şuşa" adlı sərgidə müəllimlərimin və valideynlərimin ümidlərini doğrultdum. Etiraf edim ki, rəsm müsabiqələrində iştirakım zamanı qazandığım nailiyyətlər mənə bol-bol sevinc hissləri yaşadır. Hazırda isə " Biz zəfər qazandıq" respublika onlayn rəsm müsabiqəsinə hazırlaşıram. Bu müsabiqədə də rəsmlərimin bəyəniləcəyinə ümid edirəm. Ürəklə gördüyüm işlərin mənə başucalığı qazandırdığının dəfələrlə şahidi olmuşam. Xüsusilə vurğulamaq istəyirəm ki, mənim və bütün yaradıcı dostlarımın uğurlara imza atmağımızda Mərkəzimizin rəhbəri Lalə Qətinin, sevimli müəllimlərimizin rolu əvəzolunmazdır. Məhz onların uşaq və yeniyetmələrə, gənclərə göstərdikləri diqqət və qayğının bol bəhrəsidir qazandığımız bütün uğurlar.

Yeri gəlmişkən, mən rəsmlə bərabər vaxt tapıb rəqslə də məşğul oluram və rəqs etməyi çox sevirəm. "Dostluq" festivalında fərqli rəqs nümayiş etdirdiyimə görə diploma da layiq görülmüşəm. Dərslərimdə də sinif yoldaşlarımdan geri qalmıram, adım yaxşı oxuyanlar sırasındadır.

### Məktəbin ictimai işlərində olduqca fəalam

Məktəbin ictimai işlərində də daim fəallıq nümayiş etdirirəm və direktorumuz bunu cavabsız qoymayaraq diplomlarla qiymətləndirir. "Azərbaycan, dünyam mənim" və "Bacarıqlı əllər" sərgilərində qalib olmuşam.

Riyaziyyat fənnini çox sevirəm. 2020-ci ildə "Lütfizadə" adlı məntiq olimpiadasında məktəb üzrə 1-ci yeri tutmuşam. Ümumiyyətlə, istər təhsil, istərsə də yaradıcılıq sahəsində qazandığım bütün uğurlarıma görə valideynlərimə hədsiz minnətdaram. Onlar mənim enerji mənbəyim, dayağım, gözlərimin işığı, nurudur. Boynumda haqları da böyükdür; mənə stimul veriblər, qol-qanad veriblər və bu səviyyəyə pərvazlandırıblar.

Özümə qarşı olduqca tələbkaram. Yalnız və yalnız gərgin əmək və əzmkarlıq sayəsində bütün baryerləri aşmağın mümkünlüyünü yaşım 12 olsa da yaxşı dərk edirəm. Həmyaşıdlarıma da bu keyfiyyətlərə sahib olmağı arzulayıram. Onda qazandıqların halal payın olur və insan özünü güclü, qüdrətli hiss edir.

...Şübhəsiz, mən bir jurnalist olaraq Məryəmin gələcəkdə hansı sənətin, yaxud peşənin sahibi olacağı qətiyyətində ola bilmərəm. Ancaq bu dilli-dilavər qızın dediklərindən hasil olan bir qətiyyətim oldu ki, bu cür çalışqan, prinsipial, zəhmətkeş şagird qarşısına qoyduğu bütün məqsədlərə nail olmağa qadirdir.Tanrı qorusun!

**Sifai SƏFƏROVA**

# Dama üzrə onlayn respublika turniri keçirilib

12-13 aprel tarixlərində dama üzrə onlayn respublika turniri başa çatıb. "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə keçirilən turnir Nizami Gəncəvinin 880 illiyinə həsr olunub.

Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən Uşaq-Gənclər İdman-Şahmat məktəblərindən 17 yaşadək 81 oğlan və 30 qız damaçısı olmaqla, ümumilikdə 111 iştirakçının qatıldığı yarış İsveçrə sistemi üzrə 11 turdan ibarət olmaqla *www.playok.com* internet portalı üzərindən keçirilib.

Yarışın yekun nəticəsinə əsasən, ümumi hesabda "Təhsil" RİM-in 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat məktəbinin yetirmələri Sadiq Babayev I, Orxan Məmmədzadə II, Asif Aşurov III yerlərə layiq görülüb.

Qeyd edək ki, Təhsil Nazirliyinin və Azərbaycan Dama Federasiyasının dəstəyi ilə təşkil olunan yarışın keçirilməsində məqsəd dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyinin qeyd edilməsi, məktəblilərin asudə vaxtlarının səmərəli təşkili, sürətli dama üzrə qaliblərin müəyyənləşdirilməsi və müasir texnologiyalardan istifadə etməklə damaçıların oyun təcrübələrinin artırılmasından ibarət olub.

# Dərnək üzvlərinin beynəlxalq uğurları

Təhsil Nazirliyi 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin yetirmələri beynəlxalq onlayn müsabiqələrdə uğurla iştirak edərək yüksək nəticələr əldə ediblər.

Belə ki, cari ilin fevral-aprel aylarında Rusiya Federasiyasının Moskva şəhərində təşkil olunan uşaq və gənclərin "İstoki" ("Mənbələr") Rus Mədəniyyəti III Beynəlxalq onlayn vokal festival-müsabiqəsinə qatılan mərkəzin iki gənc vokalçısı ölkəmizi layiqincə təmsil edib. Vokalçılardan Nilda Tanrıverdi müsabiqənin diplomantı adına layiq görülərək diplom ilə, Şölə Quliyeva isə fəal iştirakına görə fəxri fərmanla təltif olunub.

18 yanvar - 8 aprel 2021-ci il tarixlərində Belarus Respublikası Təhsil Nazirliyi Uşaq və Gənclərin Bədii Yaradıcılıq Milli Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Tvorçestvo bez qraniç" ("Sərhədsiz yaradıcılıq") adlı VII Beynəlxalq festival-müsabiqəsində mərkəzin "Uşaq teatrı" və "Çiçəyim" uşaq teatrı studiyasının dərnək üzvləri uğurla iştirak edib. Pantomim və bədii söz nominasiyaları üzrə təşkil olunan onlayn müsabiqədə ayrı-ayrı yaş qrupları üzrə mərkəzin yetirmələri və "Çiçəyim" uşaq teatrı I, II, III dərəcəli diplomlarla təltif olunub.

2021-ci ilin fevral-mart aylarında İtaliyada keçirilən "Liberto creativa" Beynəlxalq onlayn müsabiqəsində rəqs nominasiyası üzrə mərkəzin "Azəri inciləri" rəqs qrupu "Qran-pri" mükafatı, tar və saz alətində ifalarına görə Amin Kərimli və Nihat Babayev I dərəcəli diplom ilə təltif olunub, "Sazçalanlar" dərnəyinin rəhbəri İlqar Həsənov müsabiqənin II dərəcəli laureatı adına layiq görülüb.

# Hacı Zeynalabdin Tağıyevin ev-muzeyinə virtual ekskursiya




Milli Azərbaycan Tarixi Muzeyində “Elmi macəralar saatı” layihəsi çərçivəsində “Uşaqlar gələcəyimizdir!” platforması nəzdində Azərbaycanın bütün bölgələrindən olan məktəblilər üçün Hacı Zeynalabdin Tağıyevin ev-muzeyinə virtual ekskursiya təşkil edilib.

Bu barədə AZƏRTAC-a muzeydən məlumat verilib. Bildirilib ki, layihənin məqsədi uşaq və yeniyetmələrin mədəni asudə vaxtının səmərəli təşkilində muzeylərin geniş fəaliyyət ənənələrinin, tarixi təcrübəsinin önəmini göstərməkdir. Uşaqları fəal yaradıcılığa, tədqiqat işinə, axtarışlara yönəltməkdir.

Ekskursiya platformanın rəhbəri, İstanbul Universitetinin doktorantı Sənan Əzimovun təşəbbüsü ilə həyata keçirilib.

Layihənin müəllifi və təşkilatçısı, muzeyin Elmi-kütləvi iş və təhsil şöbəsinin əməkdaşı Qənirə Qafarlı muzeyin tarixi, yerləşdiyi tarixi bina, strukturu, ekspozisiyası, fondları haqqında ətraflı məlumat verib, gənc nəslə milli irsimizin təbliği və sevdirilməsi mövzusunda danışıb.

Sonra Elmi maarifləndirmə və ekskursiyalar şöbəsinin əməkdaşı Xədicə Hüseynovanın təqdimatında “Hacı Zeynalabdin Tağıyevin xatirə muzeyi”nə virtual ekskursiya keçirilib.

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4221 **Sifariş** 682

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** Biləcəri qəsəbəsi Laçın rayon 13 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abbasov Çingiz Məzahir oğluna verilmiş B-255661 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2019-cu ildə Əsgərova Lalə Fəzail qızına verilmiş AA-120442 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Adilzadə Təhminə Ədalət qızına verilmiş A-116256 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərəfindən 2019-cu ildə Hüseynov Becan İlham oğluna verilmiş magistr qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Xəndanlı Nəcəf Rüstəm oğluna verilmiş BB-I-022547 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 26 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş İsmayılova Aynur Sərvər qızına verilmiş B-501083 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 109 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyev Şahin Abdulla oğluna verilmiş B-190882 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Texniki Humanitar Liseyi** 2013-cü ildə bitirmiş Kərimli Nuran (Nurlana) Fərman qızına verilmiş A-276518 nömrəli şəhadətnamə və 2015-ci ildə verilmiş A-401652 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2006-cı ildə Muxtarov Vaqif Fəqani oğluna verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 2 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Atakişiyeva Təranə Alı qızına verilmiş B-322044 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2005-ci ildə Abdulzadə Tural Rasim oğluna verilmiş B-040021 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Məhərrəmli Fərid Çingiz oğluna verilmiş A-088071 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2000-ci ildə Məcidov Emil Ənvər oğluna verilmiş A-062448 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Kürçülü kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Əhmədsoy Etibar Abbas oğluna verilmiş A-170273 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Hacıalılı kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Məhyəddinova Nigar Mübariz qızına verilmiş 337527 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əzizova (Ağayeva) Günel Ağayar qızına verilmiş 495852 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Mədətov Orxan Oktay oğluna verilmiş A-134702 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Böyük Qaramurad kənd tam orta məktəbi 1985-ci ildə bitirmiş Mehdiyeva (Rəhimova) Nahidə Rum qızına verilmiş A-086338 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Şadılı kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Həsənova Şəbnəm Cahangir qızına verilmiş B-337696 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Qasımova (Hacıyeva) Təranə Əkbər qızına verilmiş 035301 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1980-ci ildə Süleymanova Nəzakət Bəxtiyar qızına verilmiş EB-280304 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 1 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Bəşirov Hakim Xalıq oğluna verilmiş A-059961 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Kakalos kənd C.Cabbarlı adına tam orta məktəbi 2002-ci ildə bitirmiş Əhmədov Radik Maarif oğluna verilmiş A-636319 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Daşdəmirbəyli kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Xəlilov Bəhmən Eyvaz oğluna verilmiş B-041134 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyini** 2018-ci ildə bitirmiş Səlimzadə Fidan Araz qızına verilmiş E-090957 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 1 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Hüseynova (Zeynalova) Rəsmiyə Oruc qızına verilmiş E-125887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etiabrsız sayılır.

**Göygöl rayon** Mollacəlilli (Yeni-Əlibayramlı) kənd tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Alıyeva Aminə Manaf qızına verilmiş A-03 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən Əliyeva Telli Mehman qızına 2010-cu ildə verilmiş B-196485 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2010-cu ildə Əbilov Sadiq Əhliyət oğluna verilmiş B-194045 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Böyükdüz kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Osmanova Xəyalə İdris qızına verilmiş A-233588 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2007-ci ildə Manafova (Qasımova) Xəzinə Nazim qızına verilmiş BB-II-052007 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Salahov Etibar Yaqub oğluna verilmiş B-104080 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qazıqumlaq kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Musayev Məhəmməd Rəhim oğluna verilmiş 041831 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** 2 nömrəli məktəb-liseyi 2010-cu ildə bitirmiş Rəhbəri Surə Ağadədə qızına verilmiş A-103642 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 28 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş İsmayılov Kamran Səfxan oğluna verilmiş BN-501288 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Rəcəbov Gündüz Azad oğluna verilmiş A-451525 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2002-ci ildə Hənifəyeva Səbinə Arif qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2005-ci ildə Babayev Nicat Heybət oğluna verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 150 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Stepanova Viktoriya İqoryevnaya verilmiş A-107000 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft Energetika Kolleci** tərəfindən 2000-ci ildə Cəfərzadə Məmməd Əhməd oğluna verilmiş AB-II-046979 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 2 nömrəli Baza Tibb Məktəbi** tərəfindən 2001-ci ildə Məmmədova Ülviyyə Zakir qızına verilmiş AB-II-064549 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Üçtəpə kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Məmmədova Səlvi Əbülfət qızına verilmiş A-136410 nömrəli şəhadətnamə və 2007-ci ildə verilmiş B-420878 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2019-cu ildə Əliyeva Şəhla Rauf qızına verilmiş AA-127040 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş İsmayılov Oqtay Ceyhun oğluna verilmiş A-409649 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 28 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Hüseynova (Məmmədova) Sevda Vadim qızına verilmiş B-250475 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 33 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Danişyar Mehən Siyavuş oğluna verilmiş 44 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 12 nömrəli tam orta məktəbin VIII sinfini 1990-cı ildə bitirmiş Tağıyev Vüqar Əlixan oğluna verilmiş A-657927 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Qurbanov Vahid Rabil oğluna verilmiş A-626152 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Məktəbi** tərəfindən 2009-cu ildə Mehdiyev Cavid Zahid oğluna verilmiş BB-II-085470 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**ÜİLKGİ-nin 50 illiyi adına 74 nömrəli Orta Texniki Peşə Məktəbi** (12 nömrəli Bakı Peşə Liseyi) tərəfindən 1994-cü ildə Hüseynov Rəşid Xalid oğluna verilmiş A-0017481 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 266 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Ağayev Tural Ülvi oğluna verilmiş A-194003 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 36 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Cahangirov Əli Ərəstun oğluna verilmiş B-609622 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2013-cü ildə Bəylərzadə Ziya Şahin oğluna verilmiş B-262282 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən 2019-cu ildə Bədəlli Elmar İlqar oğluna verilmiş 017359, 017924 nömrəli şəhadətnamələr itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2010-cu ildə Şahova Zümrüd Şıxbala qızına verilmiş B-175467 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Bağırov Rafiq Telman oğluna verilmiş E-253105 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti, BSU-nun Məktəbəqədər və ibtidai təhsil fakültəsinin dekan müavini dosent Zəhra Qulamovaya həyat yoldaşı

**FƏRMAN ƏZİMOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin Məktəbəqədər və ibtidai təhsil fakültəsinin kollektivi fakültənin dekan müavini dosent Zəhra Qulamovaya həyat yoldaşı

**FƏRMAN ƏZİMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı şəhər 20 nömrəli məktəb-liseyin rəhbərliyi və kollektivi məktəbin riyaziyyat və ingilis dili müəllimləri

**İRADƏ TAĞIYEVA və LALƏ KƏRİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və hər iki müəllimin ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Xəzər rayon TİAHİ-nin sədri Həzərxan Əbilov və 119 nömrəli tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktoru Mətanət Mayılovaya bacısı

**TUBUXANIM ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 18 nömrəli tam orta məktəbin pedaqoji kollektivi məktəbin direktoru Rəna Süleymanovaya anası

**MƏNSURƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İndoneziyanın KNB təqaüd proqramı

İndoneziya hökuməti 2021-2022-ci tədris ili üzrə KNB (Kemitraan Negara Berkembang /İnkişaf etməkdə olan Ölkələr Tərəfdaşlığı) təqaüd proqramını elan edir. Təqaüd proqramı bakalavriat, magistratura və doktorantura təhsil səviyyələri üzrə müxtəlif ixtisas istiqamətlərini əhatə edir.

Təqaüd proqramına müraciət üçün son tarix 5 may 2021-ci il nəzərdə tutulub.

Təqaüd proqramı barədə ətraflı məlumatı elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/04/593debfc56c249c180d866f09cf3c7bb.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

# Estoniyada oxumaq istəyənlərin nəzərinə!

Estoniya Respublikası 2021-2022-ci il tədris ili üçün müxtəlif təhsil səviyyələri üzrə təqaüdlü təhsil və tədqiqat proqramları imkanları elan edir.

Təqaüd proqramı Estoniya universitetlərində yay kursları, tədqiqat və mühazirələrdə iştirak, eləcə də dərəcə proqramları (bakalavriat, magistratura və doktorantura) üzrə təqaüdlü təhsil imkanları yaradır.

Təqaüd proqramı barədə ətraflı məlumatı elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/04/bf9b1aa7780441f284e60f7812eaba89.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

# Rumıniyada təqaüd proqramı

Rumıniya Xarici İşlər Nazirliyinin 2021-2022-ci tədris ili üzrə elan etdiyi təqaüd proqramına qəbul davam edir.

Ali təhsilin bakalavriat, magistratura və doktorantura təhsil səviyyələri üzrə elan edilən təqaüd proqramı müxtəlif ixtisas istiqamətlərini əhatə edir.

Təqaüd proqramına müraciət üçün son tarix 30 aprel 2021-ci il nəzərdə tutulub.

Təqaüd proqramı barədə ətraflı məlumatı elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/03/1299e5acb5f541d9954a5007556ba583.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

# Məktəb psixoloqları üçün ixtisasartırma təlimləri

Təhsil İnstitutu UNICEF (BMT-nin Uşaq Fondu) ilə birgə “Fövqəladə vəziyyət şəraitində uşaqlara və yeniyetmələrə məktəb əsaslı psixososial dəstəyin göstərilməsi” adlı layihənin icrasını davam etdirir.

Layihə çərçivəsində cəbhəyanı ərazilərdə fəaliyyət göstərən məktəb psixoloqları üçün “Böhran vəziyyətlərində məktəbdə ilkin psixoloji yardım məsələləri” mövzusunda ixtisasartırma təlimləri təşkil olunub. Təlimlər Vətən müharibəsindən təsirlənən müəllimlərə, şagirdlərə və valideynlərə psixoloji dəstək verilməsi, onların sosial və emosional bacarıqlarını gücləndirməsində məktəb psixoloqlarının bilik və bacarıqlarının artırılması məqsədilə həyata keçirilib.

Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Tovuz, Füzuli, Goranboy rayonları, Gəncə və Naftalan şəhərlərində keçirilən təlim proqramı məktəbdə psixoloji xidmətin etik prinsipləri, məktəb psixoloqunun əsas bacarıqları, böhran vəziyyətlərinin profilaktikası, böhran vəziyyətlərinin diaqnostikası, böhran vəziyyətlərində ilkin psixoloji yardım texnikaları, dialektik davranış terapiyası və digər mövzuları əhatə edir. Təlimlər zamanı müdavimlərə məktəb psixoloqunun vəzifə öhdəlikləri və hüquqları, psixoloqun ünsiyyət, müşahidə və stressi idarəetmə bacarıqları, böhran hallarının uşaq psixologiyasına təsiri, böhran vəziyyətinin yaratdığı psixi travmalar, proyektiv metodikalar və onlardan istifadə, söhbət metodu, uşaqlarda və yetkinlərdə emosional intellektin inkişaf etdirilməsi və s. haqqında məlumatlar verilib. Eyni zamanda, mövzularla bağlı müəllimlərin fikirləri dinlənilib, bu bacarıqların inkişaf etdirilməsi üçün nəzərdə tutulmuş proyektiv metodikalar, nəfəs texnikaları və müvafiq faydalı tapşırıqlar işlənilib.

Qeyd edək ki, “Böhran vəziyyətlərində məktəbdə ilkin psixoloji yardım məsələləri” mövzusunda təlimlər “Microsoft Teams” platforması üzərindən onlayn formatda keçirilib. Mart ayının sonuna qədər 300 məktəb psixoloqu təlimlərə cəlb olunub.

# Yeni elektron xidmət istifadəyə verilib

Aprelin 14-də peşə təhsili müəssisələrinə direktor müavinlərinin işə qəbulu üzrə elektron qeydiyyat prosesinə start verilib. Müraciətlərin qeydiyyatı Təhsil Nazirliyinin elektron xidmətlər portalı *(https://portal.edu.az/)* vasitəsi ilə həyata keçirilir.

Xidmət vasitəsi ilə elektron müraciətlərin ünvanlanması, müraciət sənədlərinin təqdim edilməsi, müsabiqə və müsahibə mərhələlərinə dəvət və nəticələr barəsində məlumatlandırmanın aparılması nəzərdə tutulub.

Xidmətin elektron formatda həyata keçirilməsində məqsəd bu sahədə aparılan işlərin çevik və keyfiyyətli təşkilinə, müraciətlərin sadə və rahat şəkildə aparılmasına şərait yaratmaqdır. Vətəndaşların müraciətin hansı mərhələdə olduğunu izləmək imkanı vardır ki, bu da göstərilən xidmətin açıq və şəffaf formada təşkilinə imkan verir.

Qeyd edək ki, *https://portal.edu.az/* Təhsil Nazirliyinin təqdim etdiyi bütün




elektron xidmətləri vahid məkanda birləşdirən platformadır. Vətəndaşlar bir platformada qeydiyyatdan keçməklə, öz şəxsi kabinetləri vasitəsi ilə müvafiq elektron xidmətlərdən faydalana biləcəklər.

# Cari ilin I rübü ərzində tanınma üzrə müraciətlərin statistikası

Təhsildə Keyfiyyət Təminatı Agentliyi 2021-ci ilin I rübü ərzində tanınma üzrə müraciətlərin statistikasını açıqlayıb. Belə ki, qeyd edilən dövr ərzində 678 müraciətçinin 493-ü barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 185 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Tanınma üzrə müraciətlərin icrası yanvar ayı üzrə 21, fevral ayı üzrə 14, mart ayı üzrə isə 20 gün ərzində tamamlanıb.




Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 103, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 72 və digər səbəblərə görə 10 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

İxtisas seçimlərində iqtisadiyyat üzrə 112, hüquqşünaslıq üzrə 91, maliyyə üzrə 82, tibb üzrə 75, biznesin idarə edilməsi üzrə 49, mühəndislik üzrə 48, menecment üzrə 41, beynəlxalq münasibətlər üzrə 32, turizm üzrə 14, kompüter elmləri üzrə 13 və digər ixtisaslar üzrə 121 nəfər müraciətçi qeydə alınıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 197, Türkiyədən 170, Rusiyadan 167, Gürcüstandan 50, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 11, digər ölkələrdən isə 83 müraciətin olduğu müşahidə olunur.

Ümumilikdə rüb ərzində verilən mənfi qərarların 29 faizi 10 ali təhsil müəssisəsini əhatə edir.

Əlavə olaraq, vətəndaşların Təhsildə Keyfiyyət Təminatı Agentliyinin internet səhifəsinin *(www.tkta.edu.az)* “Mütəmadi verilən suallar” *(https://tkta.edu.az/p/franquently-asked-questions-faqs)* bölməsi ilə tanış olmaları tövsiyə olunur.

# Şagirdlər UTECA ixtisasları ilə tanış olublar

Azərbaycan Texnologiya Universitetinin (UTECA) iqtisadiyyat və idarəetmə fakültəsi Gəncə şəhər 28 nömrəli orta məktəbin 10, 11-ci sinif şagirdləri və müəllimlərinin iştirakı ilə onlayn görüş keçirib.

Görüşdə UTECA rektorunun müşaviri, millət vəkili Müşviq Cəfərov, fakültə dekanı Nüşabə Hacıyeva, kafedra müdirləri Mamed Urkayev, Xalidə Ağayeva, Könül Vəliyeva şagirdlərə kafedraların fəaliyyəti, universitet və ixtisaslar haqqında geniş məlumat verib.

Şagirdlərə həmçinin, gənc müəllimlər tərəfindən ayrı-ayrı ixtisaslar üzrə hazırlanmış və Facebook, Instagram sosial şəbəkələrində paylaşılmış posterlər barədə bilgilər də çatdırılıb, UTECA ixtisaslarına dair məlumatların əlçatanlığı üçün elektron resurslar təqdim edilib. Eyni zamanda iqtisadiyyat və idarəetmə fakültəsi tərəfindən təşkil olunmuş “Virtual məktəb” layihəsində iştirak üçün şagirdlərə müraciət ünvanlanıb.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.